23 noyabr 2022 №86 (1959)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Heydər Əliyevin siyasi xəttini davam etdirərək güclü Azərbaycan dövləti qurduq




Otuz il əvvəl Yeni Azərbaycan Partiyasının yaranması tarixi hadisə idi. O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdi. Belə bir vəziyyətdə ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə ulu öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.

Prezident, Yeni Azərbaycan Partiyasının (YAP) sədri İlham Əliyev bu sözləri noyabrın 21-də Heydər Əliyev Mərkəzində YAP-ın 30 illiyi münasibətilə keçirilən tədbirdə çıxışı zamanı deyib.

***davamı səh. 2-də***

## Mədəniyyət naziri Rabatda ICESCO-nun rəhbəri ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Mərakeş Krallığında səfərdədir. Səfər çərçivəsində noyabrın 20-də Rabat şəhərində, ICESCO-nun qərargahında Azərbaycan nümayəndə heyəti ilə görüş keçirilib.

***səh. 3***

## Bakıda caz havası bitdi...



Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin dəstəyi ilə 15-20 noyabr tarixində XVII Bakı Caz Festivalı keçirildi. Festival bu il də zəngin proqramı ilə müxtəlif ölkələrdən məşhur ifaçı və qrupları sənətsevərlərlə görüşdürdü.

Noyabrın 19-da Beynəlxalq Muğam Mərkəzində israilli musiqiçi Yoqef Şetritin triosunun konserti olub. Konsertdən öncə musiqiçi Azərbaycanın İsraildə səfirlik açması ilə bağlı qərarı sevinclə qarşıladığını bildirib, iki ölkə arasında dostluq əlaqələrinin möhkəmlənməsinin əhəmiyyətini qeyd edib.

Sonra trionun konserti başlanıb. Konsertdə Y.Şetrit trio üzvləri Amir Solomon (bas) və Devid Şetritlə (fortepiano) birgə biri-birindən gözəl musiqilər səsləndiriblər. Qeyd edək ki, Y.Şetrit repertuara pianoçu, bəstəkar Əzizə Mustafazadənin əsərini də daxil edib.

***davamı səh. 2-də***

## Dahi bəstəkarın doğum günündə məzarı ziyarət olunub




Noyabrın 22-də dünya şöhrətli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatı laureatı Fikrət Əmirovun (1922-1984) anadan olmasının 100 illiyi tamam oldu.

Fikrət Əmirovun doğum günündə Mədəniyyət Nazirliyinin nümayəndələri, sənətkarın ailə üzvləri, mədəniyyət və incəsənət xadimləri Fəxri xiyabanda dahi bəstəkarın məzarını ziyarət ediblər.

***davamı səh. 2-də***

## Mərakeşdə BMT Sivilizasiyalar Alyansının IX Qlobal Forumu

### Mədəniyyət naziri Anar Kərimov forumda iştirak edir

Noyabrın 22-də Mərakeş Krallığının Fəs şəhərində BMT-nin Sivilizasiyalar Alyansının (BMTSA) IX Qlobal Forumu işə başlayıb. Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov forumda iştirak edir.



Forum çərçivəsində Fəsin Dar-Bata Muzeyində "Mədəniyyət: sülh üçün olmazsa olmazdır. Muzeylər möcüzə, kəşf, açıqfikirlilik və mədəniyyətlərarası dialoq məkanı kimi" mövzusunda panel keçirilib.

ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Angel Moratinos, mədəniyyət naziri Anar Kərimov, alim, kolleksiyaçı və xeyriyyəçi Nasser Xəlili və başqa qonaqlar iştirak ediblər.

Paneldə çıxış edən nazir Anar Kərimov mədəniyyətin dünyada sülhün bərqərar olmasında oynadığı roldan söz açıb. Bildirib ki, muzey və abidələr xalqların mədəni kimliyinin əsas göstəricisidir. Böhranlar və müharibələr zamanı muzeylərin bəzi hallarda hədəf alındığını təəssüflə qeyd edən Anar Kərimov Azərbaycanın bu sahədə ən çox zərər çəkən ölkələrdən olduğunu bildirib. Diqqətə çatdırıb ki, 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış Azərbaycan ərazilərində tarixi-mədəni irsə qarşı misli görünməmiş vandalizm həyata keçirilib.

Nazir Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" barədə məlumat verib, bu qlobal çağırışın əhəmiyyətini vurğulayıb. Bildirib ki, "Bakı Prosesi" çərçivəsində BMT də daxil olmaqla bir sıra aparıcı təşkilatların tərəfdaşlığı ilə ölkəmizdə Dünya Mədəniyyətlərarası Dialoq Forumları keçirilib.

Anar Kərimov çıxışında 2021-ci ildə Azərbaycan Respublikası tərəfindən elan edilmiş "Mədəniyyət naminə sülh" (Peace4-Culture) qlobal kampaniyası barədə də məlumat verib. Deyib ki, bu çağırışın əsas istiqaməti postmünaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhün təmin edilməsidir.

ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik çıxışında müxtəlif mədəniyyətlər və qədim sivilizasiyaların zəngin irsini qoruyub saxlayan muzeylərin fəaliyyətinin əhəmiyyətindən bəhs edib.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos rəhbərlik etdiyi qurumun fəaliyyətindən danışıb. Qeyd edib ki, mədəni irsin təbliğinin sivilizasiyalar arasında dialoqda rolu IX Qlobal Forumun əsas mövzularından biridir.

Xatırladaq ki, BMT-nin Sivilizasiyalar Alyansının "İnklüziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd" şüarı altında VII Qlobal Forumu 2016-cı ildə Bakıda keçirilib.

## Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi

Noyabrın 22-də Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dünya şöhrətli bəstəkar Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirilib.

Gecədə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev bildirib ki, Fikrət Əmirovun 100 illiyi Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə dövlət səviyyəsində qeyd olunur. İlin əvvəlindən Azərbaycanda və ölkə hüdudlarından kənarda silsilə tədbirlər keçirilir. Bu sırada Fikrət Əmirova həsr olunmuş beynəlxalq bəstəkarlıq müsabiqəsi, onun fortepiano musiqisindən ibarət musiqi albomunun buraxılması və UNESCO-da gerçəkləşən yubiley konsertini xüsusilə qeyd etmək olar.






Diqqətə çatdırılıb ki, 12-23 noyabr tarixində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş musiqi festivalı keçirilir. Festival çərçivəsində bəstəkarın ata yurdu olan Gəncə şəhərində də tamaşa nümayişi və simfonik konsert təşkil olunub. Uzun illərdən sonra ilk dəfə Fikrət Əmirovun "Sevil" operası onun adını daşıyan Gəncə Dövlət Filarmoniyasının səhnəsində nümayiş olunub.

"Günümüzdə Azərbaycanın musiqi incilərindən danışarkən Fikrət Əmirovun yaradıcılığı ilk olaraq xatırlananlar sırasındadır. Sənətkarın hər bir əsəri azərbaycançılığı, milli dəyərlərimizi təbliğ edir. Onun Azərbaycan və dünya musiqisinə bəxş etdiyi simfonik muğamlar bəstəkarın qəlbindəki muğam sevgisinin bariz nümunəsidir", – deyə Vaqif Əliyev vurğulayıb.

Ötən əsrin 50-ci illərində, sovetlər dövründə, ABŞ-dakı "Karnegie Hall"da "Şur" və "Kürd-ovşarı" simfonik muğamlarının səslənməsinin Azərbaycan bəstəkarlıq məktəbinin böyük uğuru olduğunu vurğulayan Vaqif Əliyev bu gün də həmin tarixin təkrarlandığını, paralel olaraq "Karnegie Hall"da da Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş tədbirin keçirildiyini qeyd edib.

Yubiley gecəsində maestro, Xalq artisti Rauf Abdullayevin, dirijorlar – Xalq artisti Yalçın Adıgözəlov, Əməkdar artist Əyyub Quliyev və Mustafa Mehmandarovun idarəsi ilə Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, Xalq artisti Ağaverdi Paşayevin dirijorluğu ilə F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Xalq artisti Rüfət Xəlilzadənin rəhbərliyi ilə Azərbaycan Dövlət Rəqs Ansamblı, həmçinin Xalq artisti Kamilla Hüseynovanın rəhbərliyi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası, solistlər – Xalq artistləri Alim Qasımov, Yeganə Axundova, Samir Cəfərov və başqaları çıxış ediblər.

## Çoxəsrlik xalça irsimizin saxlanc yeri 55 yaşında

Bu il Azərbaycan Milli Xalça Muzeyi 55 yaşını qeyd edir. Noyabrın 17-də çoxəsrlik xalça sənətimizə aid nümunələrin saxlanc yeri və təbliğat mərkəzi sayılan muzeyin yubileyinə həsr olunan tədbir keçirildi.



Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova mədəniyyət ocağının yaranma tarixindən, fonda daxil olan yeni eksponatlar barədə məlumat verdi. Bildirdi ki, yubiley tədbiri Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salındığı, həmçinin görkəmli alim, xalçaçı-rəssam, Xalça Muzeyinin yaradıcısı Lətif Kərimovun doğum günündə keçirilir. "Bu gün həm də onunla əlamətdardır ki, "Pasha Holding"in maliyyə dəstəyi ilə əldə olunan Qarabağa aid bədii tikmə nümunəsi muzeyin fonduna daxil edilir. Bu nümunə quruluşu, rəng ahəngdarlığı və s. cəhətdən Azərbaycan tikmələrini fərqləndirən bütün əsas xüsusiyyətləri özündə əks etdirir. XVI əsrə aid bu cür kompozisiyalı tikmələr Səfəvi Dövlətinin saray emalatxanalarında hazırlanır və dövrün yüksək dəyərli dekorativ-tətbiqi sənət əsəri sayılırdı. XVII-XVIII əsrlərdə bu tikmələrə olan böyük tələbat nəzərə alınaraq Bərdə, Naxçıvan, Şamaxı kimi bir çox şəhərlərin emalatxanalarında onlardan bəhrələnməklə yeni nümunələr yaradılıb", – deyə direktor bildirdi.

***davamı səh. 5-də***

### UNESCO-da birgə konsert



***səh. 2***

### 25-30 noyabr tarixində Bakıda II "4.4" Qısa Tamaşalar Festivalı keçiriləcək

***səh. 5***

### "Xarıbülbül" rəqs müsabiqəsi qaliblərinin qala-konserti



***səh. 5***

## "Mədəni-humanitar əlaqələrə ənənəvi olaraq xüsusi əhəmiyyət veririk"

Prezidentlər münasibətlərimizin bütün spektrini müəyyən edir. Əlbəttə, bütün müvafiq strukturlar da bu istiqamətdə fəaliyyət göstərir. Biz çox şadıq ki, qarşılıqlı ticarətin həcmi pandemiyadan əvvəlki səviyyəyə çatır və əminəm ki, bu dinamizm qorunub saxlanacaq.

Prezident İlham Əliyev bu sözləri noyabrın 18-də Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinlə görüşdə deyib.

Prezident ikitərəfli əlaqələrə dair son statistik məlumatlardakı müsbət tendensiyadan bəhs edərək bildirib ki, hazırda Rusiya və Azərbaycan arasında həftədə 130-dan çox aviareys var, Rusiyadan turist axını da artır: "Biz hələ pandemiyadan əvvəlki səviyyəyə çatmamışıq, lakin fikrimcə, çatacağıq. Ölkələrimiz arasında sıx dostluq əlaqələrini, bu il Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti barədə Bəyannamə imzalanmasını və il ərzində münasibətlərimizin müttəfiqlik xarakterini dəfələrlə nümayiş etdirməyimizi, iqtisadi-ticari əməkdaşlığın gündəliyini xeyli genişləndirmək niyyətində olmağımızı nəzərə alaraq, düşünürəm ki, reyslərin sayı da artacaq. Bilirəm ki, dünən regionlararası forum uğurla keçib. Bu da bizim ikitərəfli qarşılıqlı fəaliyyətimizin mühüm elementidir. Biz Rusiya Federasiyasının təqribən 80 subyekti ilə sıx əlaqə saxlayırıq... Biz 7 yol xəritəsi üzrə fəal iş aparırıq. Əminəm ki, ilin sonuna bu cür yaxşı göstəricilərlə yaxınlaşaraq növbəti ilə də belə dinamizm verəcəyik".

Mixail Mişustin Bakıya Rusiyanın dörd regionunun rəhbərinin də daxil olduğu böyük nümayəndə heyəti ilə gəldiklərini diqqətə çatdıraraq qeyd edib ki, 17 noyabrda keçirilən 11-ci regionlararası forumda qarşılıqlı münasibətlərin gündəliyindəki məsələlərin hamısına toxunulub. Danışıqların yekunlarına əsasən, ən müxtəlif sahələrdə əməkdaşlığın inkişafına dair bir sıra sazişlər imzalanıb.

Azərbaycanla mədəni-humanitar əlaqələrə ənənəvi olaraq xüsusi əhəmiyyət verdiklərini deyən Rusiya Federasiyası Hökumətinin sədri bildirib ki, bu il iki ölkə arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş silsilə tədbirlər keçirilib: "Gələn il isə biz görkəmli sovet və Azərbaycan dövlət xadimi, Sizin atanız Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyini qeyd edəcəyik. Bakıda bizim institutların – Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Rusiyada da Azərbaycandan olan on bir mindən çox tələbə təhsil alır. İnsanlar arasında birbaşa əlaqələrin bu cür inkişafı, zəngin tarix, mədəniyyət və ənənələrlə tanışlıq bizim qarşılıqlı münasibətlərimizi möhkəmləndirəcək".

## Əlaqələndirmə Qərargahının ikiillik fəaliyyətinin yekunlarına dair iclas

Noyabrın 22-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın ikiillik fəaliyyətinin yekunlarına həsr olunan iclas keçirilib.

Qərargahın rəhbəri Samir Nuriyev giriş sözündə ikiillik fəaliyyətin nəticələrindən irəli gələrək, keyfiyyət, səmərəlilik, operativlik və dayanıqlılıq prinsiplərinin daim rəhbər tutulmasının, hər bir layihə ilə bağlı hərtərəfli planlaşdırma, proqnozlaşdırma və risklərin qiymətləndirilməsi işinin aparılmasının, habelə görülən işlərlə bağlı səmərəli nəzarət və monitorinq mexanizmlərinin əhəmiyyətini vurğulayıb.

İclasda Əlaqələndirmə Qərargahının gündəliyində dayanan cari məsələlərlə bağlı məruzələr dinlənilib.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın icrası ilə bağlı qarşıda duran vəzifələr, Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq, Laçın şəhərinə, Zabux və Sus kəndlərinə əhalinin 2023-cü il ərzində qayıdışı istiqamətində görülən işlər barədə məlumat verilib.

Həmçinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nın icrası, ərazidə dayanıqlı enerji sisteminin qurulması, enerji və istilik təminatı məsələləri barədə məruzələr təqdim edilib.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri müvafiq ərazilərdə həyata keçirilən layihələrin icrasının gedişatı barədə məlumat veriblər.

Sonda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

## Bakıda caz havası bitdi...

### Növbəti festivalda görüşənədək

əvvəli səh. 1-də

Bəstəkar və zərb ifaçısı Y.Şetrit 1978-ci ildə İsraildə anadan olub. 2016-cı ildə öz triosunu yaradıb. Kollektiv Beynəlxalq Panama Caz Festivalı, "The Kennedy Center", "Casa Del Jazz", həmçinin Roma, Vaşinqton da daxil olmaqla dünyanın 30-dan çox ən böyük konsert salonunda çıxışlar edib.

Xatırladaq ki, "Bakı Caz Festivalı – 2022" çərçivəsində "I am jazzman!" ("Mən cazmenəm!") adlı gənc caz ifaçıları müsabiqəsi də təşkil olunub. Noyabrın 19-da müsabiqənin finalı gerçəkləşib. Qaliblər peşəkar münsiflər heyətinin xalları əsasında iki turda müəyyən edilib. Nigeriyadan Alade Vilson (vokal) I yerə layiq görülüb. 2-3-cü yerləri isə müvafiq olaraq ölkəmizdən Əli Rüstəmzadə (fortepiano) və Aslan İslamov (tuba) qazanıblar.




Bu il münsiflər heyətinin üzvləri arasında məşhur holland caz pianoçusu Mayk Del Ferro da yer alıb. Münsiflər heyətinin sədri isə Əməkdar artist, Bakı Caz Festivalının təsisçisi Rain Sultanov olub.

Festivalın son günü, noyabrın 20-də alman eksperimental musiqiçisi Mixael Şifel konsert proqramı ilə çıxış edib. Musiqiçinin qeyri-adi improvizasiyaları tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Həmin gün festivalın son akkordunu isə italyan gitaraçı Federiko Kasaqrandeni vurub. Unudulmaz anlar bəxş edən konsertin gitara akkordları və italyan notları festivalı gözəl, dəbli və payız əhvallı şən notlarla yekunlaşdırıb.

**L.Azəri**

# Heydər Əliyevin siyasi xəttini davam etdirərək güclü Azərbaycan dövləti qurduq

### "İndi isə ölkəmizin həyatında yeni dövrdür. Azad Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq"

əvvəli səh. 1-də

İlham Əliyev çıxışında xatırladıb ki, 1992-ci ildə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının başlanması ölkənin vəziyyətini daha da ağırlaşdırırdı. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi həm mənəvi cəhətdən, eyni zamanda hərbi-strateji nöqteyi-nəzərdən böyük faciə idi. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşdü və beləliklə, ərazimizin böyük hissəsi nəzarətimizdən çıxmışdı.

Dövlət başçısı qeyd edib ki, YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyev xalqın tələbi ilə Bakıya dəvət edildi, parlamentin sədri seçildi, 11 ay keçəndən sonra – oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçildi: "Beləliklə, tariximizin o qara səhifəsi bağlanmışdır. Ölkə qarşısında çox ciddi, böyük problemlər var idi. Məhz Heydər Əliyevin cəsarəti, zəkası, təcrübəsi, xalqın ona olan inamı və əlbəttə, Yeni Azərbaycan Partiyasının üzvlərinin fəaliyyəti, ictimai fəalların fəaliyyəti birlikdə bizə imkan verdi ki, bu çətin vəziyyətdən şərəflə çıxaq...".

"1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar" – deyən İlham Əliyev vurğulayıb ki, Azərbaycanın gələcəyi üçün əsas məsələ Heydər Əliyev siyasətinin davam etdirilməsi idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək bu siyasətin davam etməsinə səs verdi: "Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son




19 ilin hadisələri onu göstərir ki, belə də oldu, ulu öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir".

Prezident qeyd edib ki, Heydər Əliyevin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi: "O, həttа özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da və yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət etməyə çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur – onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır".

Dövlət başçısı daha sonra deyib: "Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni, hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi – Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt ulu öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi".

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanın bundan sonrakı inkişafının ən mühüm istiqaməti işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri olacaq: "İndi isə qurub-yaradırıq, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq. Həyatımızda və ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu quruculuq işlərində hər birimiz böyük həvəslə, bir məqsədlə iştirak edirik ki, keçmiş köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytaraq, dağılmış şəhər və kəndləri tezliklə bərpa edək və bütün dünyaya bir daha göstərək ki, biz böyük xalqıq. Bu gün nəinki Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları başını dik tutub. Bizim üzümüz ağdır, alnımız açıqdır. Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq!".

# Dahi bəstəkarın doğum günündə məzarı ziyarət olunub

əvvəli səh. 1-də

Mərasimdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Fikrət Əmirovu milli mədəniyyətimizin parlaq simalarından biri kimi səciyyələndirib. Bildirib ki, bəstəkar 38 ildir bu dünyadan köçsə də, onun zəngin yaradıcılığı daim bizimlədir: "Fikrət Əmirovun əsərləri ölkəmizdə və xaricdə möhtəşəm teatr və konsert salonlarında səslənərək Azərbaycanın musiqi şöhrətini dünyaya yayır. O, Azərbaycan musiqisini dünya musiqisi ilə uğurlu sintez edərək simfonik muğam janrını yaradıb".

Bəstəkarın yaradıcılığının həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini deyən Vaqif Əliyev qeyd edib ki, ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki mərhələsində bəstəkarın yaradıcılığına diqqət və qayğı göstərib. Prezident İlham Əliyevin Fikrət Əmirovun 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı imzaladığı sərəncam da sənətkarın zəngin irsinə dövlət qayğısının daim etdiyini göstərir. Dövlət başçısının sərəncamına əsasən, dahi musiqiçinin yubileyi ölkəmizdə və xaricdə təntənəli şəkildə qeyd olunur. Bəstəkarın 100 illiyinin UNESCO-da qeyd



olunması isə təkcə Fikrət Əmirov irsinə deyil, bütövlükdə Azərbaycan mədəniyyətinə olan diqqət və marağın bariz göstəricisidir: "Azərbaycan musiqi mədəniyyətinə parlaq nümunələr bəxş etmiş bəstəkarın zəngin irsi yeni nəsil bəstəkarlar üçün bir örnəkdir. Fikrət Əmirovun xatirəsi qəlbimizdə əbədi yaşayacaq".

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə çıxışında bəstəkarın simfonik muğam janrının banisi kimi xidmətini xüsusi qeyd edib. Bildirib ki, yaradıcılığı zəngin milli köklərə əsaslanan Fikrət Əmirov Azərbaycan musiqisinin yeni mərhələdə inkişafını təmin edən şəxsiyyətlərdəndir. Onun simfonik muğam və muğam-poema janrlarında olan əsərləri musiqi sənətinin diqqətəlayiq nümunələrindəndir".

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli bəstəkarın 100 illik yubileyinin yüksək səviyyədə qeyd olunmasına görə dövlətimizə təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, Fikrət Əmirovun simfonik muğamları dahi dirijorların idarəçiliyində səslənib: "Bütün dünya onun əsərlərini ayaq üstə alqışlayıb. Amerikalı dirijor L.Stakovski Fikrət Əmirova yazdığı məktubda demişdi: "Sizin əsərlərinizi Amerikanın bir sıra şəhərlərində ifa etdim. Sizin əsərlərinizdən sonra konserti davam etdirmək mümkün deyil. Ona görə ki, insanlar ayaq üstə durub sizin əsərinizi alqışlayır. Bu gündən sonra mən sizin əsərlərinizi həmişə konsertin sonunda ifa edəcəyəm". Bu sözlər bir daha göstərir ki, Fikrət Əmirov Azərbaycan musiqisini dünya musiqi inciləri sırasına daxil edib. Vaxtilə bu əsərlərin unudulacağını deyən insanlar bu gün görürlər ki, bəstəkarın milli musiqiyə söykənən əsərləri uzaq Amerikadan Yaponiyaya qədər bir çox səhnələrdə Azərbaycan musiqisinin təntənəsini təqdim edir".

Çıxışlardan sonra bəstəkarın məzarı önünə əklil və gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib.

**Lalə**

# UNESCO-da birgə konsert

### Fikrət Əmirovun əsərləri, Azərbaycan və Türkiyə xalq mahnıları səslənib

Parisdə, UNESCO-nun mənzil-qərargahında UNESCO üzrə Azərbaycan Milli Komissiyası və Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Azərbaycan və Türkiyənin UNESCO yanında daimi nümayəndəliklərinin birgə təşkilatçılığı ilə konsert keçirilib.

Konsertdən əvvəl Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev çıxış edib. Milli musiqimiz, bəstəkarlarımız haqqında məlumat verən diplomat Azərbaycanın musiqi mədəniyyətinə böyük töhfələr vermiş, simfonik muğam janrının banisi Fikrət Əmirovun 100 illiyinin UNESCO-nun 2022-2023-cü illər üzrə yubileylər proqramına daxil edildiyini və bu yaxınlarda təşkilatın qərargahında təntənəli şəkildə qeyd olunduğunu diqqətə çatdırıb.

Sonra o, konsert proqramının iştirakçısı – Azərbaycanın Əməkdar artisti Turan Manafzadə haqqında məlumat verib. Bildirib ki, pianoçu, dirijor və bəstəkar Turan Manafzadənin Avstriya, Almaniya, Rumıniya, Şimali Kipr, Türkiyə və digər ölkələrdə keçirilən konsertlərində Fikrət Əmirovun əsərləri səslənib.

Türkiyənin UNESCO yanında daimi nümayəndəsi Gülnur Aybet çıxış edərək bildirib ki, konsert iki qardaş ölkə arasında sıx əməkdaşlığı əks etdirir. Daimi nümayəndə Türkiyə Dövlət Opera və Baletinin baş direktoru,



məşhur tenor Murat Karahanın bir çox Avropa ölkələrinin simfonik orkestrləri ilə uğurlu konsertlərindən söz açıb.

Sonra pianoçu Turan Manafzadə və tenor Murat Karahanın ifasında Avropa bəstəkarlarının, 100 illik yubileyi qeyd olunan Fikrət Əmirovun əsərləri, eləcə də Türkiyə və Azərbaycan xalq mahnıları səslənib. T.Manafzadə Xocalı soyqırımına həsr etdiyi musiqi əsərini, "Laçın" xalq mahnısını da ifa edib. Sənətçilərin performansı dinləyicilər tərəfindən alqışlarla qarşılanıb.

Tədbirdə UNESCO yanında akkreditə olunmuş səfir və daimi nümayəndələr, diplomatlar, Parisdə yaşayan Azərbaycan və Türkiyə icmalarının nümayəndələri iştirak ediblər.

Konsertdən sonra tamaşaçılar iki qardaş ölkənin milli mətbəxinin təamlarına qonaq ediliblər.

# Mədəniyyət naziri Rabatda ICESCO-nun rəhbəri ilə görüşüb

## Baş direktora Şuşa haqqında kitab və xatirə nişanı təqdim edilib

Mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Mərakeş Krallığında səfərdədir. Səfər çərçivəsində noyabrın 20-də Rabat şəhərində, ICESCO-nun qərargahında Azərbaycan nümayəndə heyəti ilə görüş keçirilib.

Təşkilatın baş direktoru Salim bin Məhəmməd əl-Malik nümayəndə heyətini salamlayaraq, 2021-ci ilin yanvarında və cari ilin mayında ölkəmizə gerçəkləşən səfərlərindən söz açıb. O, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərini, habelə ölkəmizin Birinci vitse-prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyətlərini və ICESCO-nun elan etdiyi "Qadınlar İli" çərçivəsində "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə fevralın 11-də keçirilmiş videokonfrans formatında tədbirdə çıxışını məmnunluqla xatırlayıb. Hər iki səfərində ölkəmizin işğaldan azad edilmiş ərazilərini ziyarət etdiyini deyən Salim bin Məhəmməd əl-Malik Azərbaycana hər zaman səvə-səvə gələcəyini bildirib.

ICESCO-nun yeni strategiyasının təşkilatın beynəlxalq nüfuzunun artmasına ciddi təsir etdiyini bildirən nazir Anar Kərimov qlobal böhranlar dönəmində sülh, ədalət və inkişaf dəyərlərinə sadiq qalmağın önəmindən bəhs edib. Nazir bəzi təşkilatlardan fərqli olaraq, dini, milli və s. mənşəyinə rəğmən mədəni irsin qorunmasını siyasiləşdirməyən ICESCO-nun Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə gələn ilk beynəlxalq təşkilat olduğunu minnətdarlıqla qeyd edib.






Gecədə Əməkdar artist İlham Nəzərov çıxış edərək görkəmli bəstəkarın yubileyinin silsilə ... 

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildən elan edilmiş mədəniyyətlərarası dialoq naminə "Bakı Prosesi" çərçivəsində həyata keçirilən tədbirlərdə ICESCO-nun strateji tərəfdaş kimi iştirakından söz açan Anar Kərimov ölkəmiz tərəfindən 2021-ci ildə, postmüharibə dövründə elan edilmiş "Mədəniyyət naminə sülh" qlobal kampaniyasında da təşkilatın tərəfdaşlığının bizim üçün əlamətdar olduğunu deyib.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın bu il 270 illiyinin qeyd edilməsi haqqında məlumat verən nazir ICESCO-ya təqdim edilmiş "Şuşa – İslam Dünyasının Mədəniyyət Paytaxtı-2024" nominasiyasının da uğurlu olacağına ümidvar olduğunu bildirib.

Azərbaycan-ICESCO münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini vurğulayan nazir Prezident İlham Əliyev tərəfindən təşkilatın ölkəmizdə Regional Ofisinin açılması ilə bağlı sazişə dair müvafiq sərəncamın artıq imzalandığını məmnunluqla diqqətə çatdırıb.

Görüşdə ICESCO-nun müxtəlif bölmə rəhbərləri Azərbaycanla həyata keçirilən ortaq layihələrə dair nazirə məlumat veriblər.

Anar Kərimov ICESCO-nun rəhbərinə Şuşa haqqında kitab və Mədəniyyət Nazirliyinin Şuşanın 270 illiyinə həsr olunmuş xatirə nişanını təqdim edib.

Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri Nazim Səmədov görüşdə iştirak edib.

***

Görüşdən sonra Salim əl-Malik nazir Anar Kərimovu ICESCO-nun qərargahında yeni yaradılmış "Peyğəmbərin Yolu" muzeyi ilə tanış edib.

Bir neçə zaldan ibarət geniş və müasir muzeyin ekspozisiyasında Məhəmməd Peyğəmbərin həyatına, ailəsinə, eləcə də Məkkə və Mədinə şəhərlərinə həsr olunmuş dəyərli eksponatlar, ədəbiyyatlar, tarixi kitablar əyani və rəqəmsal formada sərgilənir.

Ekskursiyanın sonunda Anar Kərimov ölkəmiz adından muzeyə Azərbaycan dilində "Quran-i-Kərim" hədiyyə edib. Qeyd edək ki, Anar Kərimov ICESCO qərargahında açılmış muzeylə tanış olan ilk xarici ölkə mədəniyyət naziridir.

Sonda ICESCO tərəfindən Azərbaycan nümayəndə heyətinin şərəfinə rəsmi ziyafət verilib.

***

Onu da əlavə edək ki, ICESCO-nun qərargahına ev sahibliyi edən Mərakeşin paytaxtı Rabat 2022-ci ildə həm də "İslam Dünyasının Mədəniyyət Paytaxtı"dır. Rabat bu il Misirin paytaxtı Qahirə şəhəri ilə müştərək bu missiyanı daşıyır.

ICESCO-nun "İslam Dünyasının Mədəniyyət Paytaxtı" proqramı 2005-ci ildən həyata keçirilir. İlk dəfə bu ada Məkkə şəhəri (Səudiyyə Ərəbistanı) layiq görülüb.

2006-cı ildən İslam dünyasının üç regionu – Ərəb regionu, Asiya regionu və Afrika üzrə "paytaxt" şəhərlər (ayrı-ayrı illərdə bir region üzrə iki şəhər) elan edilir.

2009-cu ildə Asiya regionu üzrə Azərbaycandan Bakı (Kuala Lumpur (Malayziya) ilə birlikdə), 2018-ci ildə isə Naxçıvan şəhərləri "İslam Dünyasının Mədəniyyət Paytaxtı" olub.

2022-ci ildə "İslam Dünyasının Mədəniyyət Paytaxtı" adının Asiya regionu üzrə daşıyıcısı Bandunq (İndoneziya), Afrika regionu üzrə isə Yaunde (Kamerun) şəhərləridir.

# Fikrət Əmirovun vokal əsərlərindən ibarət musiqi axşamı

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dahi bəstəkar Fikrət Əmirovun 100 illik yubileyinə həsr olunan musiqi festivalı davam edir.

12-23 noyabr tarixini əhatə edən festival çərçivəsində ayın 22-də Beynəlxalq Muğam Mərkəzində daha bir konsert proqramı təqdim olundu. Bəstəkarın vokal əsərlərindən ibarət musiqi axşamının tamaşaçıları arasında Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova, musiqi sektorunun müdiri Vüqar Hümbətov, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər var idi.

Gecədə Əməkdar artist İlham Nəzərov çıxış edərək görkəmli bəstəkarın yubileyinin silsilə tədbirlərlə qeyd edildiyini və bugünkü konsertdə də sənətkarın vokal əsərlərinə yer verildiyini diqqətə çatdırdı.

Konsertdə əsasən "Sevil" operasından seçilmiş ariyalar, həmçinin romanslar, bəstəkarın işləmələri ilə Azərbaycan xalq mahnıları müxtəlif səs tembrlərinə malik vokalçılar tərəfindən səsləndirildi.

Xalq artistləri Teyyub Aslanov, Fidan Hacıyeva, Gülnaz İsmayılova, Əməkdar artistlər Anar Şuşalı, Fəridə Məmmədova, İlham Nəzərov, solistlər Çilənay Hüseynova, Taleh Yahyayev, Fəxri Kazım-Nicat, Mahir Tağızadə, Ataş Qarayevin ifasında təqdim olunan əsərlər alqışlarla qarşılandı. İfaçıları tanınmış pianoçu Svetlana Əhmədova müşayiət edirdi.







İlk dəfə olaraq bəstəkarın Hüseyn Cavidin "Şeyx Sənan" pyesinin tamaşasına yazdığı "Kor ərəbin mahnısı"nın fortepiano və solist duetində təqdimatı konserti daha yaddaqalan etdi.

**Lalə**

# Dahi bəstəkarın yubileyi ilə bağlı festivalın daha bir konserti

Görkəmli bəstəkar Fikrət Əmirovun 100 illiyi münasibətilə təşkil olunan musiqi festivalı çərçivəsində noyabrın 18-də Gəncə Dövlət Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konsert proqramı keçirilib.

Konsert Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Dövlət Akademik Filarmoniyasının dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) və Gəncə filarmoniyasının təşkilatçılığı ilə gerçəkləşib.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Musiqi sektorunun müdiri Vüqar Hümbətov, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, idarə, müəssisə, təşkilat rəhbərləri və şəhər ictimaiyyəti iştirak ediblər.

Bədii rəhbər və baş dirijor, Xalq artisti Rauf Abdullayevin və dirijor Mustafa Mehmandarovun rəhbərliyi altında keçirilən konsertdə Xalq artistləri Fərhad Bədəlbəyli, Azər Zeynalov, Teyyub Aslanov, solist Safura Aslanova çıxış ediblər. Konsertdə bəstəkarın "Azərbaycan süitası", "Azərbaycan elləri", Hüseyn Cavidin "Şeyx Sənan" pyesinin tamaşasına yazdığı "Kor ərəbin mahnısı", "Kürd ovşarı" simfonik muğamı, "Sevil" operasından Balaşın ariyası və "Azərbaycan kapriççosu", F.Əmirovun Elmira Nəzirova ilə birgə yazdığı "Piano və orkestr üçün ərəb mövzuları əsasında konsert" əsərləri səsləndirilib.



Konsert proqramında F.Əmirovun işləməsində xalq mahnısı "Gözəlim sənsən" dirijor Mustafa Mehmandarovun redaktəsində ilk dəfə Azər Zeynalov tərəfindən ifa olunub.

Konsert tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

# Bakıda "Gürcü əfsanəsi"





Azərbaycan ilə Gürcüstan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə noyabrın 19-da Heydər Əliyev Sarayında konsert keçirildi. Gürcüstanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə sarayın səhnəsində bu ölkənin məşhur "Erisioni" Dövlət Akademik Mahnı və Rəqs Ansamblı "Gürcü əfsanəsi" adlı proqramla çıxış etdi.

Konsertdən əvvəl Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze çıxış edərək ölkələrimiz arasındakı diplomatik və mədəni münasibətlərdən söz açdı, iki dövlət arasında uzunəsrlik tarixi əlaqələrin olduğunu dedi. Qarşılıqlı dəstək üzərində qurulan bu əlaqələrin region üçün həlledici amilə çevrildiyini vurğulayan diplomat qeyd etdi ki, strateji tərəfdaşlıq münasibətləri tədricən inkişaf edərək bölgəmizin simasını dəyişib, nəhəng enerji, infrastruktur və digər layihələr reallaşdırılıb. Gürcüstan və Azərbaycan rəhbərlərinin səyləri nəticəsində ölkələrimiz arasında mehriban dost və qonşuluq münasibətləri daha da inkişaf edib.

Ölkələrimiz arasında strateji tərəfdaşlığın bundan sonra da uğurla davam edəcəyindən əminliyini bildirən səfir rəqs kollektivi haqqında məlumat verdi. Dedi ki, "Erisioni" ansamblı təkcə Gürcüstanda deyil, onun hüdudlarından kənarda da geniş şöhrət qazanıb.

Sonra "Erisioni" ansamblının rəngarəng çıxışları təqdim olundu . Kollektivin yüksək peşəkarlıqla ifa etdiyi şux və oynaq rəqslər, teatrlaşdırılmış musiqili kompozisiyalar tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Əsası 1885-ci ildə görkəmli gürcü ədibi, maarifçisi və mütəfəkkiri İlya Çavçavadzenin təşəbbüsü ilə qoyulmuş "Erisioni" ansamblını "folklor muzeyi" də adlandırırlar. Ansambl mövcud olduğu müddətdə dünyanın bir çox ölkəsində gürcü folklorunu uğurla nümayiş etdirib. Ansamblın heyətində müxtəlif nəsillərdən yüzə yaxın artist çalışır.

**L.Azəri**

# Görkəmli musiqişünasın 80 illiyi münasibətilə kitabın təqdimatı

Görkəmli musiqişünas, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Qafarovanın 80 illik yubileyi münasibətilə "Seçilmiş məqalələr" adlı kitab çapdan çıxıb. Noyabrın 21-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) kitabın təqdimatı keçirilib.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev yubilyarı təbrik edib, onun musiqi irsimizin tədqiqi sahəsindəki fəaliyyətini yüksək qiymətləndirib. Qeyd olunub ki, Zemfira Qafarovanın görkəmli bəstəkarlarımız haqqında monoqrafiyaları, müəllifi olduğu dərs vəsaiti və elmi məqalələr peşəkar musiqiçilər və musiqisevərlər üçün dəyərli mənbələrdir.

ABİ-nin sədri, Xalq artisti, professor Firəngiz Əlizadə yubilyara xoş sözlərini çatdıraraq onun elmi yaradıcılığından söhbət açıb. Bildirib ki, Zemfira Qafarovanın tədqiqatları içərisində ən yüksək yeri Üzeyir Hacıbəylinin yaradıcılıq irsinə həsr etdiyi araşdırmaları və bilavasitə "Koroğlu" operası ilə bağlı monoqrafiyası tutur. O, 50 ilə yaxın davam edən elmi fəaliyyəti dövründə bir sıra bəstəkarlarımızın yaradıcılıq irsinə ilk dəfə monoqrafik tədqiqatlar həsr edib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professorları Gülnaz Abdullazadə, Ülviyyə İmanova, İmruz Əfəndiyeva, Asəf Zeynallı adına Musiqi Kollecinin direktoru Nazim Kazımov, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı və başqaları Zemfira Qafarovanın musiqişünas kimi çoxşaxəli fəaliyyəti barədə fikirlərini bölüşüblər.

Təqdimatı keçirilən kitab haqqında məlumat verilib. Qeyd olunub ki, tərtibçi-redaktoru musiqişünas, BMA-nın dissertantı Nərgiz Qulamova olan topluya Zemfira Qafarovanın dərc olunmuş məqalələri və müsahibələri, onun haqqında yazılmış məqalələr, eləcə də alimin 75 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları daxildir.




Vurğulanıb ki, Zemfira Qafarova tədqiqatçı-alim, pedaqoq və ictimai xadim kimi Azərbaycan musiqişünaslığına dəyərli töhfələr verib. Onun monoqrafiyaları, müxtəlif tədbirləri əks etdirən məqalə və resenziyaları, televiziya və radio verilişlərində, konsert salonlarında çıxışları Azərbaycan musiqi mədəniyyəti tarixinin zəngin xəzinəsidir.

Sonra konsert proqramı təqdim edilib. Proqramda Zemfira Qafarovanın yaradıcılıqlarını tədqiq etdiyi bəstəkarlardan Üzeyir Hacıbəyli, Ramiz Mustafayev, Tofiq Bakıxanov, Hacı Xanməmmədov və Şəfiqə Axundovanın əsərləri səslənib. Xalq artistləri Gülyanaq Məmmədova (xanəndə), Ülviyyə Hacıbəyova (piano), Əməkdar artist Sahib Paşazadə (tar), Prezident təqaüdçüsü Zərrin Əliyeva (violin) və Fəxri Kazım-Nicatın (vokal) ifaları alqışlarla qarşılanıb.

Tədbirdə Üzeyir Hacıbəyli irsinin tədqiqatı və təbliği istiqamətində gördüyü işlərə görə Zemfira Qafarovaya Bəstəkarlar İttifaqının "Üzeyir Hacıbəyli" medalı təqdim olunub.

Yubilyar tədbirin iştirakçılarına və təqdimatı keçirilən kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığını bildirib.

# Dünya şöhrətli bəstəkarın 100 illiyi münasibətilə tədbirlər davam edir

Noyabrın 22-də dünya şöhrətli bəstəkar, Dövlət mükafatı laureatı, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Fikrət Əmirovun (1922–1984) anadan olmasının 100-cü ildönümü tamam oldu. Dövlət başçısının sərəncamına əsasən dahi bəstəkarın yubileyi ölkəmizdə və xaricdə müxtəlif təbirlərlə qeyd olunur.

Gəncə Regional Mədəniyyət İdarəsinin (RMİ) təşəbbüsü ilə Fikrət Əmirovun 100 illiyi münasibətilə Gəncədə ilk musiqi məktəbinin və Musiqi Texnikumunun yaranmasında böyük rolu olan Məşədi Cəmil Əmirovun (bəstəkarın atası) qəbri ziyarət edilib. Ziyarətdə idarə rəisi Vasif Cənnətov, regional idarənin əməkdaşları, Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbinin direktoru Aidə Əmrahova və müəllimlər iştirak ediblər.

Samux rayon Sərkar kənd Uşaq musiqi məktəbində keçirilən tədbirdə əvvəlcə məktəbin nəzəriyyə şöbəsinin müəllimi İlahə Bayramova bəstəkarın həyat və yaradıcılığı haqqında məruzə ilə çıxış edib. Sonra müəllimlərin ifasında bəstəkarın bir sıra əsərləri səsləndirilib.

***



Şəki RMİ Şəki şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin kollektivi tərəfindən Şəki Dövlət Regional Kollecində Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş konsert proqramı təqdim edilib. İdarə rəisi Azər Yusubov bildirib ki, geniş və rəngarəng yaradıcılığa malik bəstəkar Cəfər Cabbarlının eyniadlı pyesi əsasında yazdığı "Sevil" operası ilə Azərbaycanda musiqi mədəniyyətində lirik-psixoloji operanın əsasını qoyub. Dahi bəstəkarın "Min bir gecə" baleti isə dünya musiqi xəzinəsinin inciləri sırasına daxildir. Bəstəkar həmçinin musiqi mədəniyyətimizə "Şur", "Kürd ovşarı" və "Gülüstan – Bayatı-Şiraz" kimi simfonik muğamlar, "Nizami" baleti, "Nizami" simfoniyası və s. dəyərli əsərlər bəxş etmişdir.

Balakən şəhər Uşaq incəsənət məktəbinin bir qrup müəllim və şagirdi F.Əmirovun yubileyi ilə əlaqədar bəstəkarın I Fəxri xiyabanda məzarını ziyarət ediblər.

# Lənkəran teatrında "Prokuror"



Lənkəran Dövlət Dram Teatrında yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevin (1925-1994) "Prokuror" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın premyerası olub.

Gənc hüquqşünas Şöhrət Poladov Xınalı rayonuna prokuror təyin olunur. Anası Surə xanım oğlunun bu təyinatına əsla sevinmir. Məlum olur ki, onun əri illər öncə həmin rayonda qətlə yetirilib, amma cinayətin üstü açılmayıb. Surə xanım nə qədər çalışsa da, Şöhrəti inadından döndərə bilmir. Xınalıda isə Şöhrəti çətin işlər gözləyir. Tikinti trestində cinayət hadisəsi baş verib, günahsız şəxs həbsxanaya salınıb. Əsl cinayətkarları ifşa etmək yeni prokurorun bacarıq və peşəkarlığından asılıdır. Nəticədə ədalət zəfər çalır...

Maraqla qarşılanan tamaşanın quruluşçu rejissorları Əməkdar incəsənət xadimi Oruc Qurbanov və Anar Babalı, quruluşçu rəssamı Fuad Babazadə, musiqi tərtibatçısı Miranda Qurbanovadır.

Rolları Əməkdar artist Sucəddin Mirzəyev (Səlimxan), artistlərdən Saleh Əzimzadə (prokuror Poladov), Qızılgül Quliyeva (Sona), Allahverən Babayev (Şirəhməd), Hikmət Cəfərov (Əmirxanov), Şəbnəm Hüseynova (Sənəm), Vəfa Hacızadə (Surə), Emil Tağı (Almazov), Amil İbrahimli (Qəzənfər) və Teymur Hacızadə (Polis) ifa ediblər.

Tamaşa 1976-1987-ci illərdə Lənkəran rayonunun prokuroru işləmiş Əməkdar hüquqşünas Tələt Qənbərovun 90 illik yubileyinə həsr olunub.

# Sumqayıt teatrında "müqəssir" axtarışı



Sumqayıt Dövlət Dram Teatrından yeni xəbər var. Noyabrın 27-də sənət ocağı növbəti premyera tamaşasını teatrsevərlərin ixtiyarına verəcək.

Rejissor Fuad Kazımov bu dəfə Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığına müraciət edərək, onun "Kimdir müqəssir?!" pyesinə maraqlı traktovka verməyə çalışıb.

Klassik nümunəyə rejissor tərəfindən əlavə edilmiş Şeytan obrazı hadisələri qarışdırır, ərlə arvad arasındakı mübahisəni kulminasiya nöqtəsinə çatdırır, bir növ nağılçı missiyasını boynuna götürür. Tamaşanı iki heyət oynayır. Dağlar Rüstəmovla Vəfa Qurbanovanı gənclər Elay Xasıyev və Məryəm Hüseynli əvəz edirlər. Şeytan obrazını isə hər iki heyətdə Elmir Mehdiyev canlandırır.

Lirik-psixoloji komediya ruhunda yozulan tamaşanın quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir. Plastik elementlərlə zəngin tamaşada rəqslərin quruluşçusu isə Yusif Dadaşovdur.

**Həmidə**

# Tarix-memarlıq abidələrinə qanunsuz müdaxilələr aradan qaldırılıb




Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Qəbələ Regional İdarəsinin əməkdaşları tərəfindən Ağdaş şəhərində yerləşən tarix-memarlıq abidələrinə edilən qanunsuz müdaxilələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə monitorinq həyata keçirilib.

Monitorinq zamanı abidələr üzərində qanunsuz yerləşdirilən reklam lövhələrinin obyekt sahibləri tərəfindən sökülməsi təmin olunub.

Dövlət Xidməti bir daha mülkiyyətində və ya icarəsində tarixi abidələr olan şəxsləri abidələrimizin, eləcə də şəhərlərimizin estetik görünüşünün qorunmasına və gələcək nəsillərə çatdırılmasına həssas yanaşmağa çağırır.



# "Sağlam həyatı seçirəm..."

## MEMİM-in daha bir maarifləndirici seminarı Xızıda keçirilib

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı silsilə tədbirlər təşkil edilir.

Noyabrın 17-də MEMİM və Sumqayıt RMİ-nin birgə təşkilatçılığı, aidiyyəti üzrə qurumların iştirakı ilə Xızı rayonunda "Narkomaniyaya yox deyirəm və sağlam həyatı seçirəm. Bəs sən?" adlı maarifləndirici seminar keçirilib.

Seminarın məqsədi sağlam gənc nəslin yetişdirilməsi, narkomaniyaya qarşı mübarizə və gənclər arasında təbliğat işlərinin aparılması, milli şüur və vətənpərvərlik hisslərinin aşılanmasıdır.

MEMİM-in direktoru Səadət Xələfbəyli və Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev Mədəniyyət Nazirliyinin müvafiq qurumları tərəfindən bu istiqamətdə həyata keçirilən maarifləndirici layihələr barədə danışıblar.






Xızı Rayon İcra Hakimiyyətinin nümayəndəsi Abdulla Hüseynov, rayon Gənclər və İdman İdarəsinin nümayəndəsi Elyanar Hüseynov və digərləri çıxış edərək yeniyetmə və gənclərin narkotik vasitələrə meyilliklərinin fəsadlarından, məktəblərdə narkomaniyaya qarşı təbliğatın vacibliyindən bəhs ediblər.

İnteraktiv şəkildə davam etdirilən seminarda mövzu ətrafında fikir mübadiləsi aparılıb, məsələ ilə bağlı metodiki vəsaitlər və xalq teatrlarında yeni təbliğat xarakterli tamaşaların hazırlanmasına dair təkliflər səsləndirilib.

Tədbir çərçivəsində MEMİM-in təşəbbüsü ilə yaradılan "Bölgə" eksperimental teatr truppası tərəfindən narkomaniya ilə mübarizə mövzusunda "Həyat tablosu" adlı tamaşa göstərilib.

Həmçinin rəsm və əl işlərindən ibarət sərgiyə baxış keçirilib, bir sıra sənət növləri üzrə ustad dərsləri təqdim olunub.

Daha sonra MEMİM-in, Mədəni İrsin Qorunması İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əməkdaşları və mədəniyyət könüllülərinin iştirakı ilə rayonda yerləşən XIX əsr memarlıq abidəsi – Köhnə hamam ərazisində iməcilik və Mikayıl Müşfiqin Xatirə Muzeyi ətrafında "Sən də gələcəyin üçün bir ağac ək" adlı ağacəkmə aksiyası keçirilib.

# Vətəni bütöv edənlərin xatirəsi əziz tutulur



Vətən müharibəsi şəhidi Elşən Əhmədlinin şəhadətə yüksəlməsinin ikinci ildönümü ilə əlaqədar Şəki RMİ-nin Oğuz rayonu üzrə nümayəndəsi Elvin Qarayev və rayonun mədəni-maarif müəssisələrinin rəhbərləri Oğuz şəhərindəki Şəhidlər xiyabanına gələrək onun, həmçinin burada uyuyan digər şəhidlərin məzarlarını ziyarət edib, xatirələrini ehtiramla yad ediblər.

***



Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" adlı tədbir keçirilib. Çıxışlarda Qarabağın, o cümlədən Şuşa şəhərinin zəngin tarixindən, mədəni irsindən, işğal dövründə məruz qaldığı dağıntılardan söz açılıb. Sonda dərnək üzvlərinin ifasında Şuşanı vəsf edən mahnılar və vətənpərvərlik ruhunda kompozisiyalar təqdim edilib.

***

Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov və idarənin tabeliyində fəaliyyət göstərən Lənkəran Uşaq Rəssamlıq Məktəbinin müəllim və şagirdləri Vətən müharibəsi şəhidi Rəşad Məmmədovun doğum günü ilə əlaqədar ailəsini ziyarət ediblər. Görüşdə şəhidin Rəssamlıq məktəbində təhsil almasından, Vətən müharibəsində göstərdiyi şücaətdən danışılıb. Sonda rəssam Tərlan Sadıqovun çəkdiyi şəhid Rəşid Məmmədovun portreti ailəsinə təqdim edilib.



Lənkəran rayonunun Viravul kəndində Dövlət Sərhəd Xidmətinin şəhid polkovniki Emil Nəzirovun xatirəsinə tikilən bulaq kompleksinin açılışı olub. Açılış mərasimində Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, şəhidin ailə üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, Birinci və İkinci Qarabağ müharibələrinin iştirakçısı olan polkovnik Emil Nəzirov DSX-nin hərbi helikopterinin ötən il noyabrın 30-da Xızı rayonu ərazisində "Qaraheybət" aviasiya poliqonunda qəzaya uğraması nəticəsində şəhid olub və II Şəhidlər xiyabanında dəfn edilib.

***

Masallı RMİ-nin Cəlilabad rayon üzrə nümayəndəsi Elnur Atakişiyev və rayon Mədəniyyət Mərkəzinin əməkdaşları Vətən müharibəsinin şəhid kapitanı Rəşad Abdullayevin ailəsinə baş çəkiblər.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanası "Vətən müharibəsi ədəbiyyatda" adlı kitab sərgisi təşkil edib.

***



Sumqayıt RMİ və "Şəhid Analarına Dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində bəstəkar Lalə Şirinin 44 günlük Vətən müharibəsi igidlərinə həsr olunmuş "Qəhrəmanlıq elegiyası" klipinin təqdimatı keçirilib. Şəhid ailələrinin iştirak etdiyi tədbirdə klipin nümayişindən sonra çıxışlar dinlənilib. Bədii hissədə şəhid və qazi övladlarından ibarət "Əmanət" xor kollektivi, ifaçılar Nizami Quliyev və Polad Quliyev vətənpərvər ruhlu mahnılar səsləndiriblər. Klipin rejissor və montajçısı Teymur Bayramovdur.

Sumqayıt şəhər MKS-nin Mərkəzi Kitabxanası və M.Ə.Sabir adına kitabxana filialının əməkdaşları Vətən müharibəsi şəhidi Vüqar Məmmədovun ailəsini ziyarət edib, qayğıları ilə maraqlanıblar.

***



Ağstafa RMİ Ağstafa Tarix-Diyarşünaslıq Muzeyi, Ağstafa rayon Hüseyn Arifin Ev-Muzeyi və şəhər 1 saylı Folklor klubunun birgə təşəbbüsü ilə Vətən müharibəsi şəhidi Əliheydər Hüseynlinin xatirəsi anılıb.

# "Uşaq hüquqları aylığı" ilə bağlı maarifləndirici tədbirlər

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən hər il olduğu kimi, bu il də Uşaq hüquqları haqqında Konvensiyanın (1989) qəbul edilməsinin ildönümü ərəfəsində ölkəmizdə "Uşaq hüquqları aylığı" (20 oktyabr - 20 noyabr) elan edilmişdi. Aylıq çərçivəsində bölgələrdəki mədəniyyət müəssisələrində müxtəlif maarifləndirici tədbirlər keçirilib.

Şəki RMİ Qax rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə ölkəmizdə, o cümlədən Qax rayonunda uşaq hüquqlarının qorunması və təşviqi sahəsində görülən işlərdən bəhs edilib. Bildirilib ki, uşaq hüquqlarının tam təmin edilməsi ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir. Bu istiqamətdə həyata keçirilən maarifləndirici tədbirlər uşaq hüquqlarının effektiv təmini və təbliğinə xidmət edir.

***



Ağdaş RMİ Ağdaş rayon Heydər Əliyev Mərkəzində "Uşaq hüquqları aylığı" çərçivəsində tədbir keçirilib.

Ucar Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları aylıq çərçivəsində şəhər 2 nömrəli tam orta məktəbdə olublar. Şagirdlərə "Uşaq hüquqları haqqında" Konvensiya barədə məlumat verilib.

***



Sabirabad RMİ Hacıqabul rayon Heydər Əliyev Mərkəzi və rayon Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə uşaqlara dövlətimiz tərəfindən göstərilən qayğıdan, onların ailədə və cəmiyyətdəki hüquqlarından söz açılıb. Uşaq hüquqları ilə bağlı maarifləndirici slayd nümayiş olunub, iştirakçılara "Ailədə yaşamaq hər uşağın haqqıdır" adlı maarifləndirici bukletlər paylanılıb.

***

Biləsuvar RMİ Biləsuvar rayon Heydər Əliyev Mərkəzində rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə mərkəzin əməkdaşları uşaqlara eksponatlar haqqında məlumat veriblər. Biləsuvar Dövlət Rəsm Qalereyası tərəfindən məktəblilərin çəkdiyi rəsmlərdən ibarət sərgi nümayiş olunub.

***



Masallı RMİ Cəlilabad rayon Heydər Əliyev Mərkəzi və 10 saylı körpələr evinin təşkilatçılığı ilə "Rənglərlə doludur dünyamız" mövzusunda tədbir keçirilib. Uşaqlar mərkəzin film otağında cizgi filmi izləyərək əyləncəli və maraqlı zaman keçiriblər.

Cəlilabad rayon Sabirabad kənd klubunda "Sən öz hüquqlarını bilirsənmi?" mövzusunda tədbir keçirilib. Tədbirdə Sabirabad kənd klubunun əməkdaşları, Nizami Məmmədov adına 1 və Həmid Tağıyev adına 2 saylı tam orta məktəblərin şagirdləri iştirak ediblər.

***

Xaçmaz RMİ Siyəzən rayon Heydər Əliyev Mərkəzində aylıq çərçivəsində "Mənim hüquqlarım" adlı tədbir təşkil edilib.

***

Ağstafa RMİ Ağstafa rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Azad ölkəmizin fidanları" adlı tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, uşaqlar sağlam və normal mühitdə böyüməli, gərəkli vətəndaş kimi yetişməlidirlər.

Tovuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi rayon 7 saylı körpələr evində "Uşaqlar sağlam gələcəyin təməlidir" adlı tədbir keçirib. Muzeyin əməkdaşları uşaqlarla maarifləndirici söhbətlər aparıb, onların hüquqları barədə məlumat veriblər.

**Hazırladı: N.Məmmədli**

# Çoxəsrlik xalça irsimizin saxlanc yeri 55 yaşında

## Azərbaycan Milli Xalça Muzeyinin yubileyi qeyd olundu

*əvvəli səh. 1-də*

Şirin Məlikova muzeyin öz hesabına “Bonhams” hərrac evindən aldığı qızıl sırğaların da təqdim olunduğunu diqqətə çatdırdı. Dedi ki, sırğalar mina və basmaqəlib texnikasında Təbrizdə hazırlanıb. Öz dövründə çox məşhur olan, ayrı-ayrı müstəqil elementlərdən ibarət çoxhissəli bu növ sırğalardan varlı və dəbli xanımlar istifadə edib.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva muzeyin kollektivini əlamətdar yubiley münasibətilə təbrik etdi. Bildirdi ki, bu gün Azərbaycan xalçası elmi baxımdan tədqiq edilir, həmçinin xalçalarımızın sorağı dünyanın məşhur muzeylərindən gəlir. Xalçaçılıq sənəti Azərbaycan xalqının yaradıcılıq irsinin ən parlaq nümunələrindəndir və ən qiymətli maddi mədəni sərvətidir. Azərbaycan xalça sənəti özündə xalqın estetik dünyagörüşünü, bədii istedadını əks etdirir. Ölkəmizdə xalça sənətinin inkişaf etdirilməsi və qorunmasına dövlət tərəfindən xüsusi diqqət göstərilir.

Sevda Məmmədəliyeva yubiley münasibətilə muzeyin bir qrup əməkdaşının mədəniyyət naziri Anar Kərimovun müvafiq əmri ilə fəxri fərmanla təltif edildiyini diqqətə çatdırdı, kollektivə gələcək fəaliyyətində uğurlar arzuladı.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva xalçada tariximiz, mədəniyyətimiz, ədəbiyyatımız, zövqümüz və düşüncəmizin əks olunduğunu deyərək bu sahənin inkişafının əhəmiyyətindən söz




açdı. Müstəqillik dövründə bu sahəyə dövlətin diqqət və qayğısından danışan millət vəkili muzeyin əməkdaşlarını və bu sahədə çalışan insanları təbrik etdi.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova və “Pasha Holding”in şöbə müdiri Nazim Səfərov da çıxış edərək muzeyin əməkdaşlarına yubiley münasibətilə təbriklərini çatdırdılar.

Daha sonra qonaqlar muzeyin kolleksiyasına yeni daxil olan eksponatlarla tanış oldular.

Qonaqlar sonda yubileyə həsr edilən lotereyada iştirak edərək xalça sənətinə dair müxtəlif suvenirlər qazandılar.

**Lalə Azəri**

# “4.4” Qısa Tamaşalar Festivalı başlayır

Mədəniyyət Nazirliyi və Teatro.az sənət portalının təşkilatçılığı ilə 25-30 noyabr tarixində Bakıda II “4.4” Qısa Tamaşalar Festivalı keçiriləcək.

Təşkilat komitəsi festivalın proqramını müəyyənləşdirib. Festivala təqdim olunan 20-dən artıq tamaşadan 12-si müsabiqə proqramına daxil edilib. Bu tamaşaların 6-sı Bakıda, 4-ü rayonlarda fəaliyyət göstərən dövlət teatrlarının, 2-si isə müstəqil teatrların payına düşür. Sənət yarışına dram teatrları ilə yanaşı, kukla teatrları da qatılıb.

Bundan əlavə, festivalın proqramında ölkənin müxtəlif teatrlarının repertuarından seçilmiş 7 müsabiqədənkənar tamaşa yer alıb.




Builki festivalın özəlliklərindən biri də müsabiqədənkənar proqrama daxil edilmiş xarici tamaşadır. Seyrçilər K.Marcanişvili adına Tbilisi Dövlət Akademik Teatrının təqdimatında Lev Tolstoyun eyniadlı povesti əsasında “Kreyser sonatası”na baxa biləcəklər.

Tamaşalar Akademik Milli Dram, Akademik Musiqili, Akademik Rus Dram, Dövlət Gənc Tamaşaçılar, Pantomima və Kukla teatrlarında nümayiş olunacaq.

Festivalın proqramı yalnız tamaşalarla bitmir. Teatr mütəxəssislərinin ustad dərsləri, treninqlər və panel müzakirələri də nəzərdə tutulub. Noyabrın 24-də Xalq artisti, Adana Çukurova Universiteti Dövlət Konservatoriyasının (Türkiyə) professoru Cahangir Novruzovun “A.P.Çexovun “Ayı” və “Təklif” qısa pyesləri əsasında əməli təhlil üsulunun tətbiqi” mövzulu treninqi (ADMİU), noyabrın 30-da Tbilisi Beynəlxalq Teatr Festivalının art-direktoru Yekaterina Mazmişvili və Tbilisi Beynəlxalq Teatr Festivalının prodüseri Nutsa Burjanadzenin, habelə K.Marcanişvili adına Tbilisi Dövlət Akademik Teatrının bədii rəhbəri Levan Tsuladzenin iştirakı ustad dərsləri ilə (Akademik Musiqili Teatr) olacaq.

# “Humo”nun səhnə sehrindən Verdi musiqisinin vokal ecazına

## Özbəkistanın balet və opera sənətçilərinin Bakı qastrolundan yaddaşa köçənlər

Xəbər verdiyimiz kimi, ötən həftə Azərbaycan və Özbəkistan arasında genişlənən mədəni əlaqələr çərçivəsində Əlişir Nəvai adına Özbəkistan Dövlət Akademik Opera və Balet Teatrının kollektivi Bakıda qastrol səfərində oldu.

Vokal və balet truppaları, xor və simfonik orkestrdən ibarət heyət paytaxtımıza teatrın repertuarından iki əsər – “Humo” baletini və “Riqoletto” operasını gətirmişdi.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində gerçəkləşən hər iki tamaşa sənətsevərlər tərəfindən maraqla qarşılandı. İstər özbək xalqının şifahi xalq ədəbiyyatı nümunəsinin balet kimi unikal və zərif sənət növünə inteqrasiyası, istərsə də vətəni Avropa olan opera incisinin özbək vokalçıların ifasında təqdimatı maraqlı və fərqli zövqün nümunəsi idi. Bu həm də onun isbatı idi ki, sənətin, musiqinin, səhnənin imkanları və təsir gücü onun dinləyicisi, izləyicisi olan hər yerdə arzulanandır.

Qonaq kollektiv noyabrın 16-da Özbəkistanın Əməkdar incəsənət xadimi, bəstəkar və dirijor Ənvər Erqaşovun (1954-2021) “Humo” baletini (dirijor Əzəmxan Əhmədov) təqdim etdi.

Qeyd edək ki, tamaşanın quruluşçu baletmeysteri Gürcüstanın Xalq artisti Georgi Aleksidze, baletmeysteri Özbəkistanın Əməkdar artisti Nazimə Həsənova, quruluşçu rəssamı Özbəkistanın Əməkdar mədəniyyət işçisi Zubaydullo Batırovdur. Premyerası 2005-ci ildə olan baletə görə bəstəkar Ə.Erqaşov 2007-ci ildə Özbəkistanın I dərəcəli Dövlət mükafatına layiq görülüb.

Tamaşada xeyirlə şərin mübarizəsindən bəhs olunur. Xeyir şər qüvvələr üzərində zəfər çalır. Bir çox Şərq xalqlarının mifik təfəkküründə olduğu kimi, özbəklərin folklorunda da xüsusi yerə sahib Humo (Humay) quşu isə xeyirxahlıq və ədalət simvolu kimi bu mübarizəyə yardımçı olur.

İki pərdədən ibarət romantik nağıl baletində bütün hadisələrin mərkəzində o var – Humo. Sehrli pəri-quş getdiyi hər yerə gözəllik, xoşbəxtlik və sevgi aparır. Axı, o, Yer üzünü dolaşaraq sevgi və sülh üçün tüklərini tökür və yenidən qol-qanad açana qədər aləm səadətə qərq olur. Günlərin bir günü dağları dolaşıb, uzun yolları qət edən mahir dulusçu Zərgər Humonun məmləkətinə gəlir. Su sonası kimi səf tutan pəri-qızlardan birinə – Züleyxaya aşiq olur.



Gözəlliyi ilə bir çoxlarını heyran edən, lakin kimsəyə könül verməyən Züleyxa da Zərgərə aşiq olur. Amma onların vüsalı qısa sürür. Zalım və tamahkar hökmdar Harun da ona göz dikib. Odur ki, min cür hiyləyə əl ataraq o gözəlliyi ələ keçirmək istəyir. Buna görə bədxah ovçusu Mənsuru, həmçinin digər güclərini də işə qoşur. Onlar Züleyxanı oğurlayaraq saraya aparırlar.

Amma ədalət zəfər çalır. Dərvişin köməyi ilə sevgilisini azad edən Zərgər Humonun sehrli gücü ilə birləşib, səadətlərinə qovuşurlar. Beləcə, o vaxtdan Humo firavanlıq və ədalət simvolu kimi də əfsanəyə dönüb, bütün aşiqlərin qəlbində özünə yer tutur.

Musiqi ilə mövzunun mükəmməl harmoniyası, özbək milli rəqs və geyimlərinin baletin ayrı-ayrı pərdələrində incəliklə, özü də müxtəlif vaxtlarda, həm də yerində həlli maraqlı, ecazkar bir mənzərə yaradırdı. Mürəkkəb xoreoqrafik elementləri, xüsusən eyni tarazlıqda hərəkət-ifadələrdə qüsursuz sinxronluq, minimalist yanaşma, xüsusən kütləvi səhnələrdə vahid nizama xələl gətirməyən temp dəqiq xoreoqrafik aktın sürəkli alqışlanması ilə nəticələndi.

Ümumilikdə balet nümunəsi zərifliyi, ifaçıların ustalığı və quruluşunda milli elementlərin çoxşaxəli sintezi ilə tamaşaçıların rəğbətini qazana və müasir özbək balet sənətinin səviyyəsini göstərə bildi.



Özbəkistan Dövlət Akademik Opera və Balet Teatrı kollektivinin paytaxtımızda ikinci tamaşası da yaddaqalan oldu. İtalyan bəstəkarı Cüzeppe Verdinin məşhur “Riqoletto” operasının (dirijor Denis Vlasenko) tamaşası da səfər proqramı üçün uğurlu seçim hesab oluna bilər.

Əsas partiyaları Özbəkistanın opera ulduzları – Xalq artistləri Şükür Qafurov və Ramiz Usmanovun ifa etdiyi bu klassik opera nümunəsi (quruluşçu rejissor Ruslan Şerezdanov) özünün ənənəvi mövzusu ilə əslində, azərbaycanlı operasevərlərə çoxdan tanışdır. Sadəcə, bəlli mövzuya fərqli səs və ifa texnikalarında baxmaq müqayisə və fərqlərin analizi üçün də vacibdir.

“Riqoletto” Verdi yaradıcılığının zirvəsidir və bizim Opera və Balet Teatrının çoxsaylı tamaşaçıları tərəfindən ən çox sevilən operalardan biridir. Bu mənada Verdi musiqisinin gözəlliyi və əzəməti, müğənnilərin güclü və emosional təsirli səsləri, gözəl tərtibat və geyimlər tamaşanı unudulmaz edə bildi.

Sənətsevərlərə bəlli olduğu kimi, operanın əsasını Viktor Hüqonun “Kral əylənir” əsərinin süjet xətti təşkil edir. Bu, acınacaqlı sonluqla bitən romantik dramdır və o, Mantuanın əxlaqsız və həyasız hersoqundan bəhs edir. Zarafatcıl Riqoletto qızının namusunu təhqir etdiyinə görə ondan qisas almağa çalışır. Qəddar qisas planlaşdıran Riqoletto istəmədən qızının qatilinə çevrilir.

Tamaşaçılar bəlli hekayənin özbək vokalçılarının ifadə imkanlarında təsvirinə qapana və hadisələrin təsiri altına düşə bildilər. Bu işdə sözsüz ki, əsas partiya ifaçıları ilə yanaşı, ecazkar xorun (baş xormeyster Özbəkistanın Xalq artisti Süleyman Şadmanov) da payı az deyildi.

Qısacası, iki axşam Bakı səhnəsində sənətsevərlər özbək opera və balet sənəti təmsilçilərinin valehedici çıxış imkanına malik olduğunu gördülər və onların klassik irsə qatdıqları özəllikləri alqışladılar.

**Həmidə Nizamiqızı**

# Kinorejissor Oleq Səfərəliyev nazirliyin fəxri fərmanı və xatirə nişanı ilə təltif olunub

Mədəniyyət naziri Anar Kərimov noyabrın 18-də Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, kinorejissor Oleq Səfərəliyevlə görüşüb.



Rejissoru 70 illik yubileyi münasibətilə təbrik edən nazir onun kino sənətinin inkişafında xidmətlərini, xüsusilə çoxillik pedaqoji fəaliyyətini vurğulayaraq, sənətkara ən xoş arzularını çatdırıb.

Görüşdə həmçinin Prezident İlham Əliyevin müvafiq fərmanı ilə yeni yaradılmış Azərbaycan Respublikası Kino Agentliyinin gələcək fəaliyyəti barədə fikir mübadiləsi aparılıb və agentliyin ölkəmizdə kino sənayesinin inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

Sonda Anar Kərimov yubileyi münasibətilə Oleq Səfərəliyevə möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıb, Mədəniyyət Nazirliyinin fəxri fərmanı və “Şuşa – 270” xatirə nişanını sənətkara təqdim edib.

Oleq Səfərəliyev səmimi qəbula və sənətinə göstərilən diqqətə görə nazir Anar Kərimova öz təşəkkürünü bildirib.

Qeyd edək ki, rejissor, ssenarist, prodüser Oleq Səfərəliyevin filmoqrafiyasında “Əlvida, cənub şəhəri”, “Canlı yayım”, “Kilsə”, “Müdriklərlə söhbətlər”, “Qorxu mağarası” və s. bədii və sənədli ekran əsərləri yer alıb.

# Mixail Şvıdkoy Akademik Musiqili Teatrla tanış olub



Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy ölkəmizə səfəri çərçivəsində noyabrın 18-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında olub.

Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev qonağa sənət ocağının tarixi və fəaliyyəti haqqında məlumat verib. Söhbət zamanı iki ölkə arasında mədəni əlaqələrdən bəhs olunub, gələcəkdə teatrların yaradıcılıq mübadiləsi ilə bağlı tövsiyə və təkliflər səsləndirilib.

Mixail Şvıdkoy Azərbaycan-Rusiya mədəni əlaqələrinin inkişafında Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusilə vurğulayıb. Bu istiqamətdə həmçinin Azərbaycanın Rusiyadakı səfiri, Xalq artisti Polad Bülbüloğlunun mühüm rolunun olduğu qeyd edilib.

Teatrın müasir standartlara cavab verən binası ilə tanışlıqdan sonra qonaq burada yaradıcı fəaliyyət üçün çox yüksək səviyyədə şəraitin olduğunu deyib. Qeyd edib ki, bu, Azərbaycan dövlətinin teatra, sənətə, ümumilikdə mədəniyyətə qayğı və diqqətinin bariz nümunəsidir.

İxtisasca sənətşünas olan professor M.Şvıdkoy sosial şəbəkələr vasitəsilə Musiqili Teatrın fəaliyyətindən xəbərdar olduğunu da diqqətə çatdırıb və kollektivin uğurlarına sevindiyini bildirib.

# “Xarıbülbül” rəqs müsabiqəsi qaliblərinin qala-konserti

Xəbər verdiyimiz kimi, Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Zəfər Gününə həsr edilmiş “Xarıbülbül” rəqs müsabiqəsi təşkil edilib. Müsabiqə BXA-nın tam orta təhsil, orta ixtisas təhsili və bakalavr pillələri üzrə şagird və tələbələri arasında milli, klassik və müasir rəqs üzrə keçirilib.

Müsabiqənin mükafatlandırma mərasimi və qala-konserti Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Opera studiyasında təşkil edilib.

Müsabiqə qaliblərinə klassik, milli və müasir rəqs üzrə I, II, III yerlərin diplomları, eləcə də “Xarıbülbül”, “Simpatiya”, “Münsiflər” mükafatları təqdim olunub.



BXA-nın tədris işləri üzrə prorektoru, rektor vəzifəsini müvəqqəti icra edən Əməkdar artist Nailə Məmmədzadə qalibləri təbrik edib.

Mükafatlandırma mərasimindən sonra “Xarıbülbül” rəqs müsabiqəsi qaliblərinin qala-konserti olub. Konsertdə “Qaytağı”, “Cadugər”, “Ruhun valsı”, “Zəfər rəqsi”, “Xarıbülbül”, “Qarabağ Azərbaycandır!”, “Qələbə”, “Odlar yurdu”, “Haradasan?”, “İgidlər”, “Qartal”, “Küçələrə su səpmişəm”, “İspan rəqsi”, “Kəpənək”, “Acaruli”, “Bu gecə”, “Zəfər gülü”, “Biz gəlirik”, “Qaval” və başqa rəqslər təqdim edilib.

№86 (1959)
23 noyabr 2022
www.medeniyyet.az

# “Türk ədəbiyyatının inciləri” – 100 cilddə özbək dilində

## Toplunun 16 cildində Azərbaycan ədəbiyyatı əks olunub



Türk dövlətləri şair və yazıçılarının özbək dilinə tərcümə olunmuş əsərlərindən ibarət "Türk ədəbiyyatının inciləri" adlı 100 cildlik kitablar seriyası Daşkənddə çap edilib.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzindən (AMM) verilən məlumata görə, unikal nəşr layihəsi Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin göstərişi ilə həyata keçirilib. Şavkat Mirziyoyev Türk Şurasının (2021-ci ildən Türk Dövlətləri Təşkilatı – TDT) 2019-cu il oktyabrın 15-də Bakıda keçirilən VII Zirvə toplantısında irəli sürülən təkliflər əsasında "Türk ədəbiyyatının inciləri" adlı 100 cildliyin hazırlanması və nəşri ilə bağlı sərəncam vermişdi.

Özbəkistan Yazıçılar Birliyi və Elmlər Akademiyası tərəfindən hazırlanmış çoxcildlikdə TDT üzvləri Özbəkistan, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, eləcə də müşahidəçi üzvlər Türkmənistan və Macarıstan ədəbiyyatına dair 629 şair, yazıçı və mütəfəkkirin əsərləri yer alıb.

Azərbaycan ədəbiyyatından Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhsəti Gəncəvi, Əfzaləddin Xaqani, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Heyran xanım, Natəvan, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə kimi klassiklərlə yanaşı, Məmməd Səid Ordubadi, Məhəmməd Hadi, Səməd Vurğun, Mirzə İbrahimov, Əhməd Cavad, Süleyman Rüstəm, Almas İldırım, Mikayıl Müşfiq, Rəsul Rza, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Anar, Elçin, Sabir Rüstəmxanlı, Ramiz Rövşən – ümumilikdə 200-ə yaxın müəllifin əsərləri toplam 16 cilddə təqdim olunur. Çoxcildlikdə Heydər Əliyev adına AMM-in Azərbaycan ədəbiyyatına dair tərcümələrindən də geniş istifadə olunub.

Özbəkistanda bu möhtəşəm layihənin ərsəyə gəlməsində 200-dən çox tərcüməçi, 100-dən çox ədəbiyyatşünas və mətnşünas, yazıçı, redaktor və rəssam iştirak edib. 100 cildlik 200 min nüsxə tirajla "Özbəkistan" nəşriyyatında çap olunub.

Noyabrın 22-də Özbəkistan Dövlət Şərqşünaslıq Universitetində türk dövlətlərinin Özbəkistandakı səfirlikləri və mədəniyyət mərkəzlərinin iştirakı ilə layihənin geniş təqdimatı keçirilib.

"Türk ədəbiyyatının inciləri" 100 cildlik kitablar seriyasının nəşri qardaş ölkənin türk mədəniyyəti, ədəbiyyatına böyük töhfəsi sayılır və cəmiyyətdə böyük rezonans doğurub.

Layihənin davam etdirilməsi, türk dövlətləri ilə yanaşı, bütövlükdə Türk dünyası, türk toplumlarının şair və yazıçılarının da əsərlərinin nəşri nəzərdə tutulub.

# 100 yaşlı bəstəkarın adını daşıyan 60 yaşlı məktəb

## Fikrət Əmirov adına İncəsənət məktəbi haqqında kitab çap olunub

Bu il dünya şöhrətli bəstəkar Fikrət Əmirovun anadan olmasının 100, dahi musiqiçinin adına daşıyan 6 nömrəli Onbirillik incəsənət məktəbinin isə 60 illiyidir. Yubilyar təhsil ocağı haqqında kitab çap olunub.

Noyabrın 18-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Milli Konservatoriyasında (AMK) nəşrin təqdimatı keçirildi.

Tədbirdə Bakı Şəhər Mədəniyyət Baş İdarənin rəis müavini Nazim Əliyev, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova, Milli Konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi, bəstəkarın qızı Sevil Əmirova, musiqi məktəblərinin direktorları və musiqisevərlər iştirak edirdilər.

Tədbirdə əvvəlcə İncəsənət məktəbinin hazırladığı videoçarx nümayiş olundu.

Aparıcı musiqişünas, təhsil ocağının nəzəriyyə şöbəsinin müəllimi Aytən Manafova tədbiri açaraq məktəbin tarixindən, tanınmış yetirmələrindən danışdı. Bildirdi ki, İncəsənət məktəbi 60 il bundan əvvəl yaradılıb. Bu, sadəcə, bir rəqəm deyil. Həm də daim yeniləşən, nəsildən-nəslə dəyişən böyük bir kollektivin, Fikrət Əmirov ənənələrini yaşadanların həyatıdır.

AMK-nın elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova bildirdi ki, kitabın ərsəyə






gəlməsində çox böyük zəhmət çəkilib: "Yüksək səviyyədə tərtib edilən nəşrdə məktəbin 60 illik tarixi ətraflı işıqlandırılıb. Kitabın hazırlanmasında zəhməti olan hər kəsi təbrik edirəm".

Konservatoriyanın nəzdində Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi Nazim Kazımov əlamətdar yubiley və kitab münasibətilə məktəbin bütün kollektivini təbrik etdi, işlərində uğurlar arzuladı.

Təhsil ocağının direktoru, Əməkdar müəllim Adilə Yusifova çıxışında Fikrət Əmirovun həyat və yaradıcılığından, onun Azərbaycan musiqisinə verdiyi töhfələrdən söhbət açdı. Kitab haqqında məlumat verən direktor qeyd etdi ki, üç fəsildən ibarət olan nəşrdə təhsil ocağının yaranması və fəaliyyəti xronoloji olaraq izlənilir. Bildirildi ki, kitabın hazırlanmasında S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin materialları, məktəbin sənədləri, həmçinin dövri mətbuatda dərc olunmuş məqalələr, eləcə də Azərbaycan musiqi mədəniyyəti xadimlərinin şəxsi materiallarından istifadə olunub.

Adilə Yusifova kitabın ərsəyə gəlməsində dəstək verən, zəhməti keçən insanlara incəsənət xadimlərinə minnətdarlığını bildirdi.

Çıxışlardan sonra bədii hissəyə keçildi. Məktəbin şagirdləri və məzunlarının ifasında konsert proqramı təqdim olundu. Təhsil ocağının "Odlar Yurdu" rəqs ansamblının ifasında "Koroğlu" operasından və F.Əmirovun "Gözün aydın" (xoreoqraflar Z.İbrahimova, T.Mustafayev) operettasından rəqslər xüsusilə alqışlarla qarşılandı.

**Savalan**

# Saz-söz sənətinin ustadı

## Kürdəmirdə Aşıq Şakirin 100 illiyi qeyd olunub

Şirvan aşıq məktəbinin görkəmli nümayəndəsi, Əməkdar mədəniyyət işçisi Şakir Hacıyevin (1922-1978) anadan olmasının 100 illiyidir. Kürdəmir Regional Mədəniyyət İdarəsi (RMİ) Kürdəmir rayon Heydər Əliyev Mərkəzində ustad sənətkarın yubileyi münasibətilə tədbir keçirilib.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialının rayon Mədəniyyət Mərkəzi və Azərbaycan Aşıqlar Birliyi (AAB) ilə birgə təşkil etdiyi tədbirdə elm və mədəniyyət xadimləri, tanınmış aşıqlar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Muzeyin Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı Şirvan aşıq mühitinin ən parlaq nümayəndəsi aşıq Bilalın layiqli davamçısı olan Aşıq Şakirin adının bu gün də dillər əzbəri olmasından, sənətinə olan məhəbbətdən danışıb. Qeyd edib ki, Şakir Hacıyev Şirvan aşığı olsa da, onun sənətinin sorağı ölkəmizlə yanaşı, Dağıstan, Orta Asiya və İranı əhatə edib, məlahətli səsi, qəlbəyatan zəngulələri ilə ifa etdiyi aşıq havalarına möhürünü vurub.

AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı Aşıq Şakirin zəmanəsinin ritmi ilə yaşayıb-yaradan sənətkar olmasından danışıb. Folklorşünas alim "Mədəniyyət" kanalında yayımlanan "Saz-söz axşamı" verilişinin bir neçə buraxılışının bütünlüklə Aşıq Şakirə həsr olunduğunu vurğulayıb. Deyib ki, respublikanın ən mötəbər tədbirlərinin, səhnələrinin bəzəyi olan sənətkar el şənliklərinin ən əziz, ən arzulanan qonağı sayılıb.

Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı bildirib ki, Aşıq Şakir xanəndə kimi də çox sevilib və onun ifa etdiyi havalarda muğam gəzişmələri, xırda boğazlar, zəngulələr aşıq havalarına yeni üslub, zənginlik, şirinlik gətirib, eyni zamanda xanəndələrimiz, müğənnilərimiz onun repertuarından bəhrələniblər.

Ulu öndər Heydər Əliyevin folklorumuz və aşıq sənəti haqqında söylədiyi "Yeni əsrə, yeni minilliyə biz Qorqud irsinin bayrağı altında, Qorqud mənəviyyatını yaşadan insanlar kimi qədəm qoyuruq" fikirlərini xatırladan Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli ustad aşığın sənətinin



davamçılarına uğurlar arzulayıb.

Jurnalist Tofiq Abdullayev Aşıq Şakir haqqında görkəmli ziyalı və sənət adamlarından topladığı xatirələrdən ibarət üç kitab ərsəyə gətirdiyini bildirib.

Aşığın nəvəsi, Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşı, dosent Qətibə Mahmudova çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara ustad sənətkara verdikləri dəyərə görə təşəkkürünü bildirib. O, babasının xatirəsinə ithaf etdiyi "Yolun düşsə, bu dünyaya bir də gəl" kitabını qonaqlara təqdim edib.

Çıxışlardan sonra Əməkdar mədəniyyət işçisi, ustad aşıq Ağamurad Şirvanlı, tanınmış xanəndə-aşıq Əvəzxan Xankişiyev, Səfalı Əliyev, Elman Talıstanlı, gənc aşıqlar Qəlbinur İbrahimli, Elçin Rəşidoğlu mərhum sənətkarın repertuarından havalar ifa ediblər. Tədbirə ustadın nəvəsi, aşıq Babək Şakirlinin ifasında sənətkarın hər zaman sevə-sevə ifa etdiyi, yaddaşlarda kök salan "Şirvan şikəstəsi" ilə yekun vurulub.

# Tanınmış teatr xadimi Natiq Gülməmmədov dünyasını dəyişib



Əməkdar mədəniyyət işçisi, tanınmış teatr xadimi Natiq Gülməmmədov noyabrın 19-da vəfat edib.

Natiq Məmməd oğlu Gülməmmədov 1955-ci il iyunun 10-da Naxçıvan MR Şərur rayonunda anadan olub. 1972-ci ildə Qarabağlar kənd orta məktəbini bitirib. 1984-1991-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Mədəni-maarif fakültəsində təhsil alıb.

1973–1979-cu illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrında müxtəlif vəzifələrdə çalışan Natiq Gülməmmədov 1980–1988-ci illərdə Musiqili Komediya Teatrında (indiki Akademik Musiqili Teatr ) bədii quruluş hissə müdiri işləyib. 1988–1997-ci illərdə Akademik Milli Dram Teatrı və 1997–2003-cü illərdə Musiqili Komediya Teatrında baş inzibatçı vəzifəsində çalışıb. 2003–2010-cu illərdə Akademik Milli Dram Teatrında, 2010–2015-ci illərdə isə Azərbaycan Dövlət Kukla Teatrında direktor müavini kimi fəaliyyət göstərib.

Natiq Gülməmmədov 2015–2016-cı illərdə Akademik Milli Dram Teatrında direktor müavini, sonra isə sərəncamçı direktor vəzifəsində çalışıb. Son olaraq Azərbaycan Dövlət Kukla Teatrında direktor müavini olub. 2022-ci ildən yaşı ilə əlaqədar təqaüdə çıxmışdı.

Allah rəhmət eləsin.

# BXA-da Xumar Zülfüqarovaya həsr olunmuş xatirə gecəsi

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Xalq artisti, görkəmli rəqqasə-xoreoqraf, pedaqoq Xumar Zülfüqarovaya (1927-2017) həsr olunmuş xatirə gecəsi keçirilib.

Tədbiri BXA-nın orta ixtisas təhsili pilləsinin direktoru Tahir Eynullayev açaraq, iştirakçıları salamlayıb, Xumar Zülfüqarovanın yetirməsi olaraq onunla bağlı xatirələrini bölüşüb.

Xumar Zülfüqarovanın digər yetirmələri – müəllim Şəlalə Səfiyeva, Milli və müasir rəqs kafedrasının müdiri, Xalq artisti Cəmilə Bayramova, İncəsənət Gimnaziyasının klassik rəqs müəllimi Natella Həsənova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, xoreoqraf Afaq Hüseynova unudulmaz müəllimləri barədə xoş təəssüratlarını bölüşüblər.



Daha sonra görkəmli rəqqasənin fəaliyyəti, onun dərs zamanı tələbələrə sənətin incəliklərini öyrətməsi, gürcü kinematoqrafiyasının istehsalı olan "Mamluk" filmində canlandırdığı Şərq qızının rəqsi videoçarx şəklində nümayiş etdirilib.

# "Dünyadan köçəndə gözlərimə Təbriz torpağı töksünlər..."

## Əli Fərruxi Təbriz xalçaçılıq məktəbi ənənələrini Qarabağa gətirib

Xalça xalqımızın sənət zövqünün, dünyagörüşünün göstəricilərindən hesab olunur. Tarixən Azərbaycanın bölgələrində xalçaçılıq spesifik xüsusiyyətlərinə görə fərqlənib, ayrı-ayrı məktəblər formalaşıb. Bu məktəblər içərisində ölkəmizin Qarabağ bölgəsi də özünəməxsus yer tutur.

Ötən əsrin 50-ci illərində Qarabağda, Ağdamda xalçaçılığın inkişafı ilə bağlı dövlət səviyyəsində tədbirlər görülüb, bu sahənin inkişafı ilə bağlı xüsusi sərəncam da imzalanıb. Bu istiqamətdə görüləcək işlər xalçaçılıq sənətinin sirrini yaxşı bilən Əli Fərruxi Təbrizliyə tapşırılıb. O, zəngin mədəniyyət mərkəzlərimizdən olan Təbrizdən gəlmiş və xalça sevdalısı kimi tanınırdı. Bu yazıda məşhur xalçaçının ömür yoluna nəzər salacağıq.

Əli Fərruxi Təbrizli 1928-ci ildə Cənub Azərbaycanın Təbriz şəhərində dünyaya göz açıb. Erkən çağlardan xalçaçılıq sənətinə maraq göstərib. Sonra Təbrizdə milli azadlıq hərəkatına qoşulub. Seyid Cəfər Pişəvərinin başçılıq etdiyi Milli hökumət süqut etdikdən sonra (1946) bir çox soydaşlarımız kimi şimala – Bakıya üz tutub. O, burada da xalçaçılıq sənəti ilə maraqlanır. Bu istəklə tanınmış xalçaşünas, Xalq rəssamı Lətif Kərimovun yanına gedir. L.Kərimov Ə.F.Təbrizlinin xalçaçılıq sahəsində istedadını bəyənir və "Azərxalça" Birliyində işə götürür. Bir müddət çalışdıqdan sonra hökumətin tapşırığı ilə o, bu sahədə fəaliyyətini Ağdamda davam etdirir. Bu regionda xalçaçılığın inkişafı ilə bağlı həyata keçirilən layihənin icrasına nəzarət etməyə başlayır.

Beləliklə, qısa müddət ərzində Ağdamda xalçaçılığın inkişafında ciddi dönüş yaranır. Eyni zamanda burada Təbriz xalçaçılıq məktəbinin bir sıra ənənələri də tətbiq edilir. Ağdamlı gənc qızlar Ə.F.Təbrizlinin köməyi sayəsində xalçaçılıq sənətinin sirlərinə yiyələnir. Çox keçmir Ağdam xalçaçılıq məktəbinin ənənələri ətraf rayonlara da keçir və bütövlükdə Qarabağ bölgəsində bu sənətin inkişafında yeni mərhələ başlanır...

Qəlbində doğma Təbriz nisgilini yaşadan xalçaçı duyğularının toxunan nümunələrə köçürülməsinə nail olur. Novator sənətkar olan Ə.F.Təbrizli xalçaçılıqda çox maraqlı və çətin bir işə başlayır, ikiüzlü gəbə toxuyur. Xalçanın bir üzündə böyük şairimiz Məhəmmədhüseyn Şəhriyarın, o biri üzündə isə Azərbaycanı Şimal və Cənuba ayıran Araz çayını təsvir edir. Beləliklə, onun xalçaçılıq sahəsində istedadı və doğma yurda sonsuz məhəbbəti bənzərsiz bir sənət əsərinin yaranmasına səbəb olur.

Araşdırmalarda görkəmli xalçaçının həm də xeyriyyəçi kimi tanındığı bildirilir. Qeyd edilir ki, bir gün o öz xalça dükanının qarşısında dayanıbmış. Bu zaman "Ay kilim alan, ay kilim alan" deyə-deyə ağsaqqal bir kişinin ona tərəf gəldiyini görür. Bazarı başdan-başa dolaşan və kilimini sata bilməyən ağsaqqal çox yorğun halda dükanın qabağından keçir. Ə.F.Təbrizli onun halına yanır. Qocanı dükanına çağırır. Birlikdə yemək yeyirlər. Sonra kilimi kişidən satın alıb, pulunu ödəyir. Qocanı yola salanda isə "Ağsaqqal, indi bir oğlun kimi mən bu kilimi sənə hədiyyə edirəm" deyərək malını özünə qaytarır və pulunu da halal edir.

Publisist Eldar Həsənli araşdırmasında Ə.F.Təbrizlinin Azərbaycanın bir sıra yaradıcı insanlarla dostluq əlaqələri qurduğunu qeyd edir. Bildirilir ki, tanınmış şairlər Söhrab Tahir, Məmməd Araz, Xəlil Rza Ulutürk, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, həmçinin Xudu Məmmədov və Famil Mehdi onun ən çox əlaqə saxladığı dostları olub. Bundan əlavə, Mirzə İbrahimov, Nəriman Həsənzadə, Cəmil Əlibəyov, eləcə də məşhur sənət adamlarından Lütfəli Abdullayev, Rübabə Muradova, Sara Qədimova tez-tez onun evində qonaq olublar.

Sənətdə uğurlar qazanıb, şöhrəti respublikaya yayılsa da, Təbriz həsrəti onu bir an da olsun rahat buraxmır. Bir gün o, "Sovet Naxçıvanı" (indiki "Şərq qapısı") qəzeti redaksiyasına məktub yazır. Bildirir ki, Naxçıvan Cənubi Azərbaycanla həmsərhəddir, Təbrizdən mənə



bir ovuc torpaq gətizdirin öləndə övladlarım gözlərimə töksünlər... Ancaq onun bu xahişini yerinə yetirmək mümkün olmur. Ömrünün son çağlarında ən böyük arzusu o vaxt Təbrizdə qalan qardaşı Hüseyni, bacısı Zəhranı və digər əzizlərini görmək olur. Təbriz həsrəti güc gələndə Söhrab Tahiri Ağdama dəvət edər və onunla dərdləşərmiş...

Tanınmış xalçaçı elə Təbriz deyə-deyə 1981-ci ildə, ömrünün bəhrəli vədəsində dünyasını dəyişir, Ağdam şəhər qəbiristanlığında dəfn olunur.

**S.Fərəcov**

# Yaşar Nuri sənətinin nuru

Sənət həyatını bütünlüklə ona həsr edənləri yaşadır. Xalq artisti Yaşar Nuri (3.9.1951 –22.11.2012) də 61 illik ömür payının 50 ilini sevib-seçdiyi aktyorluq sənətinə həsr etdi. Çoxşaxəli yaradıcılığının hər məqamında peşəsini ali səviyyədə təqdim etdiyinə görə dünyasını dəyişdikdən sonra da qəlblərdə, düşüncələrdə yaşayır, unudulmayıb. Sənətkarı vəfatının 10-cu ildönümündə yad edirik.



Rusiyalı publisist Qriqori Landau “Sənət həmsöhbətin susduğu dialoqdur” deyir. Ustad aktyor Yaşar Nurinin yaratdığı dramatik, komik obrazlar da düşüncələrimizdə yaşatdığımız müasirlərimizdir, həmsöhbətimizdir.

11 yaşından səhnəyə çıxan, “ilk müəllimim də, ustadım da atam olub” deyən sənət aşiqi teatr, kino fəaliyyətində özünü milyonlara sevdirməyi bacarıb. Yerli və xarici dramaturqların əsərləri əsasında hazırlanan tamaşalarda istedadını, bacarığını təsdiqləyən aktyor səhnə fəaliyyətinin ilkin mərhələsindən etibarən kinematoqrafçıların da diqqətini çəkib.



“Azərbaycanfilm” Kinostudiyasında istehsal olunan “Dörd bazar günü” filmində debüt rolunu (Seyran) oynayan aktyor bundan sonra ardıcıl olaraq filmlərə dəvət alıb, 50-yə yaxın ekran əsərində çəkilib. Həmçinin kinostudiyanın nəzdində fəaliyyət göstərən dublyaj studiyasında 20-yə yaxın yerli (“Ölsəm... bağışla” – Müdir (rolu ifa edən Tofiq İsmayılov), “Alma almaya bənzər” – Mehdi (Fazil Salayev), “Bağ mövsümü” – Cabbar (Mirzə Babayev), “Evlənmək istəyirəm” – Şamil (Şamil Süleymanlı) və s.), onlarla xarici kino personajlarını ustalıqla səsləndirib.

İlk dəfə “Bakıda küləklər əsir” filmində (1974) əsgər (Ceyhun Mirzəyev) rolunu səsləndirən Yaşar Nuri, həmçinin “Sehrli çıraq” (Yaşik), “Qurbanəli bəy” (Qurbanəli bəy), “Kitabi-Dədə Qorqud. Basat və Təpəgöz” (Təpəgöz) animasiya filmlərində personajları ifadəli səsi ilə kiçikyaşlı tamaşaçılara təqdim edib.

Teatr fəaliyyətində olduğu kimi, hər bir kino obrazı ilə də peşəkarlığını təsdiqləyən xarakterlər ustası bir ildə 2, bəzən 3 bədii filmə çəkilib, həmçinin “Mozalan” kinojurnalının 20-dən çox bədii süjetində maraqlı rollar yaradıb. “Mozalan” filmlərində oynadığı müdir (“Yeni iş üsulu”), baldızoğlu (“Baldızoğlu”), sərnişin (“Zərbə”), sərxoş (“Kömək”) kimi rolları ilə qeyri-normal xüsusiyyətə malik insanların gülüş və təəccüb doğuran cəhətlərini tənqid hədəfinə çevirib, davranış və düşüncələrini nəsillərin mühakiməsinə verib.

Kino fəaliyyətinin ilkin mərhələsində sosial mövzulu filmlərə (geoloq Mərdan – “Bizi dağlarda axtarın”, Rauf – “Mezozoy əhvalatı”, Nazimzadə – “Şeytan göz qabağında”, Bəşir – “Musiqi müəllimi” və s.) dəvət alan aktyor tədricən dramatik (Kərbəlayı Cəfər – “Qəm pəncərəsi”, Məşədi Oruc – “O dünyadan salam”, Mahmud – “Qətl günü” və s.), komik (İsrafil – “Bəyin oğurlanması”, Makintoş – “Yol əhvalatı”, Məmməd – “Lətifə”) ekran personajları ilə müəllif aktyor mövqeyindən çıxış edib, cəmiyyəti narahat edən vacib məsələləri, insani münasibətləri yaradıcılıq meyarına çevirib.

Əməkdar artist **Nəcibə Hüseynovanın** sözlərində aktyorun yaradıcılıq üslubunu izləyirik: “Yaşar Nurinin oyununu hələ tələbə olarkən, rus dramaturqu Aleksandr Ostrovskinin “Günahsız müqəssirlər” əsəri əsasında hazırlanan tamaşadakı Neznamov rolunda görmüşdüm. Çox ciddi dramatik rol oynayırdı. Ondan bir kurs aşağıda oxuyurdum. Həmişə yuxarı kurs tələblərinin tamaşalarına gedib baxırdıq. Sonralar Yaşar Nurinin komik rollarını da gördüm. Hər bir rolunu içdən və inandırıcı oynayırdı.

Kinoda ilk dəfə “Tənha narın nağılı” filmində Mərcan rolunu oynamışam. Yaşar Nuri bu filmdə Qubad rolunda çəkilirdi. Onunla oynamaq rahat olsa da, tərəf-müqabil olmaq böyük məsuliyyətdir. Ciddiliyi ilə yanaşı zarafatları da olurdu. Güclü yumor hissinə malik olması, baməzəliyi istər-istəməz rolumu yaratmağa kömək edir, mənə stimul verirdi. Fasilə zamanı söhbət edirdik. Birdən görürdüm ki, rola keçid aldı. Sözlərindən, mətndən başa düşürdüm ki, söhbət əsnasında belə, rolu məşq edir və məni də rola hazırlayır. Mən də dərhal onun ardınca gedib replikalar verirdim. Beləcə, çəkilişdən əvvəl rahat, sərbəst şəkildə məşq edirdik. Epizodlar da təbii, səmimi alınırdı. Ümumiyyətlə, onunla işləmək çox rahat idi...”.

Kino xarakterləri yaddaşlara həkk edir, düşündürdüyünə görə də yaşadır. Yaşar Nurinin maraqlı, orijinal ekran obrazları yaddaşlarda iz salan, kinonun özünü yaşadan personajlardır. Əsl sənətkar qüdrəti də yaradıcılıqda düşüncələrə hakim kəsilmək, sənətin üstünlüyünü dönə-dönə sübut etməkdir. Yaşar Nuri bütün dövrlərin ehtiyac duyulan sənətkarı idi. Buna görə də teatr, kino fəaliyyəti ilə paralel olaraq dəvət aldığı televiziya tamaşaları ilə də uğuruna uğur qatdı, bir daha xalqın sevimlisinə çevrildi.

Aktyorun 70-80-ci illərdə televiziya tamaşalarında oynadığı Göyüş (“Kişilər”), Mais (“Yollar görüşəndə...”), Həsənağa (“Göz həkimi”), Surxayzadə (“Evləri köndələn yar”), Əli bəy (“Ordan-burdan”), 11 personaj (“Qonşu qonşu olsa”), 4 personaj (“Ac hərifler”) və digər rolları göz önündə canlandıqca Yaşar Nuri sənətinin nurundan hər evə, hər ocağa bu gün də pay bölündüyü bir daha təsdiqini tapır. Peşəkar rejissorlarla təkrar-təkrar çalışan aktyorun yaradıcılığı sübut edir ki, rejissorlar onu sevərək filmlərinə, tamaşalarına dəvət edib, əminliklə rol veriblər.

Mənbələrin birində Xalq artisti, rejissor **Ramiz Həsənoğlunun** aktyor haqqında söylədikləri diqqətimizi çəkir: “Yadıma gəlmir ki, mən hansısa yeni bir işi başlayanda Yaşar gözümün qabağına gəlməsin. Hətta Yaşarın həyatda olmadığı vaxtlarda belə, istər-istəməz onun aktyor məharəti barədə düşünərək ona həmişə rol vermək istəmişəm...”.

Komik rollar ifaçısı kimi yaddaqalan aktyorun istər kinoda (Mahmud – “Qətl günü”, Asim Əliyeviç – “Nə gözəldir bu dünya...” və s.), istərsə də televiziya tamaşalarında (Qəhrəman – “Kökdən düşmüş piano”, Elçin – “Səndən xəbərsiz” və s.) oynadığı dramatik obrazlar, sözün əsl mənasında, həyat məktəbinə çevrilir, insan mənəviyyatını tədqiq edir. Onun personajları ədəbi əsərlərin məzmun yükünü böyük məsuliyyət və qətiyyətlə üzərində daşımaqla mövzunun dərinliyinə varır, tamaşaçını mühitin ab-havasına salaraq əsərin ideyasını, məzmun dərinliyini cilalayır, düşündürür.

İnsan xarakterində nəzərə çarpan cahillik və çılğınlıq onun dünyagörüşünün bariz nümunəsi, problemlərin başlanğıcıdır. Məhz bu mənanda incəsənətin və sənət adamının həyat hadisələrini təhlil edərək (yaradıcılıqda) nizama salmaqda rolu əvəzsizdir. Yaşar Nurinin də kinoda, televiziya tamaşalarında canlandırdığı personajların təfsirində meşşan (Qurbanəli bəy), sərxoş (Andrey Buslay), özündən müştəbeh (Dadaşov), xudbin (Qurbanov) xarakterlər qınanıldı, ailədə, məişətdə, ümumiyyətlə, cəmiyyətdə aktual olan mövzular təhlil edildi, təzadlı insan xarakterləri fonunda həyat məsələlərinin qəlizləşmə, münasibətlərin mürəkkəbləşmə səbəbləri açıqlandı.

Əməkdar incəsənət xadimi, kinorejissor **Elxan Cəfərovun** xatirələri aktyorun rola və tərəf-müqabillərinə olan münasibətini izah edir: “Yaşar Nuri ilə ilk sənət görüşüm “Şir evdən getdi” filmində olub. Ancaq filmdən əvvəl onunla tanış idim. Çünki anam Mailə xanım hələ kiçik yaşlarımdan məni radioya, televiziyaya aparırdı. Orada Yaşar müəllimlə tez-tez rastlaşırdım. Buna görə mən onun gözündə axıra kimi elə kiçik Elxan kimi də qaldım.

İllər ötdü, biz “Təxribat” filmində bir də görüşdük. Filmdə Yaşar Nurinin oynadığı Rəhimovla dialoqda olduğum bir səhnə var.

Çəkilişə az qalmış Yaşar müəllim dedi ki, səni güldürəcəm, rolunu oynaya bilməyəcəksən. Mən isə ona, roluma tam hazıram və ciddiliyimi pozmayacam, dedim. Biz mərc gəldik. Mən qapıdan içəri girəndə Yaşar müəllimin üzündə məzəli ifadələri görüb özümü saxlaya bilmədim və güldüm. Təbii ki, mərci uduzdum. Eldar müəllim (rejissor Eldar Quliyev – red.) mənə bərk əsəbiləşdi. Növbəti dubl çəkiləndə Yaşar müəllim tamamilə fərqli mimikada yenə məni güldürdü. Eldar müəllim bu dəfə də mənə əsəbiləşdi. Üçüncü dublda Yaşar müəllimdən xahiş etdim ki, Eldar müəllimdən utanıram, xahiş edirəm, məni güldürməyin, çəkiliş alınsın. O, çox istedadlı olmaqla yanaşı, həyatsevər, çılğın insan idi. Ciddi atmosferdə belə zarafatından qalmırdı və mühitdə gözəl əhval-ruhiyyə yaradırdı.

Kinostudiyada görüşəndə hər dəfə mənə deyirdi ki, Cəfərov, ölüb gedəcəm, amma sən məni çəkmədin. Mən də ona, nə vaxt film çəksəm, mütləq sizi çəkəcəyəm, deyirdim. Təəssüflər olsun ki, onunla bir filmdə işləmək alınmadı. Düşünürəm ki, indi həyatda olsaydı, Yaşar müəllimə mütləq tam ciddi bir obraz verəcəkdim...”.

**Şəhla Əmirli**
**kinoşünas**

## Xatirə təqvimi — 23-25 noyabr

### Azərbaycan

**23 noyabr 1923** – Yazıçı, şair, jurnalist Əmrah Bala oğlu Əmrahov (1923–1988) Bakının Kürdəxanı kəndində anadan olub. Kitabları: “Ürək vətən üçün döyünəndə”, “Ulduzlar gecə parlar”, “Dağ bənövşəsi” və s.

**23 noyabr 1927** – Tarixçi, şərqşünas, professor Əhməd Əhməd oğlu İsgəndərov (1927– 2017) Bakının Mərdəkan kəndində doğulub. Moskvada yaşayıb, SSRİ EA-nın Ümumi Tarix İnstitutunda baş elmi işçi, direktor müavini, “Tarix məsələləri” jurnalının baş redaktoru işləyib. Rusiyanın Əməkdar elm xadimi, Rusiya EA-nın müxbir üzvü olub.

**23 noyabr 1936** – Ədəbiyyatşünas, yazıçı-dramaturq, professor Aqşin Əlisəttar oğlu Babayev (1936 – 10.6.2020) Bakıda anadan olub. Türk ədəbiyyatına dair tədqiqatların, “Ayrılıq”, “Dünyanın axırı” və s. kitabların, tərcümələrin müəllifidir.

**23 noyabr 1937** – Əməkdar artist Zemfira Nəriman qızı Quliyeva (1937 – 3.11.1997) Gəncə şəhərində anadan olub. 1963-cü ildən Musiqili Komediya Teatrında çalışıb.

**23 noyabr 1948** – Dahi bəstəkar, publisist, pedaqoq, SSRİ Xalq artisti Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (18.9.1885 – 1948) vəfat edib. Azərbaycan professional musiqisinin banisi, müsəlman Şərqində ilk operanın (“Leyli və Məcnun”, 1908), ilk operettanın (“Ər və arvad”, 1910) müəllifidir. Azərbaycan EA-nın akademiki olub.

**23 noyabr 1999** – Xalq artisti, Dövlət mükafatı laureatı, görkəmli teatr və kino aktrisası Leyla Ağalar qızı Bədirbəyli (8.1.1920 – 1999) vəfat edib. “Səbuhi”, “Arşın mal alan” (1945), “Dərviş Parisi partladır” və s. filmlərdə çəkilib.

**24 noyabr 1906** – Ədəbiyyatşünas Əli Nazim (Ələkbər Mahmud oğlu Mahmudzadə; 1906 – 23.8.1941) Təbrizdə doğulub. Repressiya qurbanı olub.

**24 noyabr 1922** – Əməkdar artist, vokalçı Rəhilə Muxtar qızı Cabbarova (1922 – 2.12.2002) Tiflisdə doğulub. Opera və Balet Teatrının solisti olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**24 noyabr 1924** – Rəssam, Əməkdar incəsənət xadimi Vəcihə Əli qızı Səmədova (1924 – 24.10.1965) anadan olub. Tanınmış şəxsiyyətlərin portretlərinin, mənzərə və tematik tabloların müəllifidir.

**24 noyabr 1934** – Azərbaycan Dövlət Teatr Muzeyinin açılış mərasimi keçirilib. Azərbaycan Dövlət Muzeyinin müvafiq şöbəsinin bazasında yaradılan muzeyə tanınmış teatr xadimi Ağakərim Şərifov direktor təyin olunmuşdu.

**24 noyabr 2001** – Əməkdar incəsənət xadimi, aktyor, sirk ustası Siyavuş Məmməd oğlu Şəfiyev (1.9.1937 – 2001) vəfat edib. “Əhməd haradadır?”, “Uşaqlığın son gecəsi” və s. filmlərdə çəkilib.

**25 noyabr 1909** – Əməkdar artist Fateh Mirzə Möhsün oğlu Fətullayev (1909 – 4.5.1983) Lənkəranda anadan olub. Musiqili Komediya, Akademik Dram və digər teatrlarda çalışıb, “Ögey ana” (Arif), “Bir məhəlləli iki nəfər” və s. filmlərdə çəkilib.

**25 noyabr 1913** – Memar, Əməkdar inşaatçı Nəsrulla Yaqub oğlu Kəngərli (1913-1991) anadan olub.

**25 noyabr 1918** – Xalq yazıçısı, Dövlət mükafatı laureatı İmran Haşım oğlu Qasımov (1918 – 20.4.1981) Bakıda doğulub. “Uzaq sahillərdə” (H.Seyidbəyli ilə birgə) povesti, “Dairəni genişləndirin”, “Sən nə üçün yaşayırsan?” pyeslərin və s. əsərlərin, kinossenarilərin (“İnsan məskən salır”, “Onun böyük ürəyi”) müəllifidir. Yazıçılar İttifaqının birinci katibi (1975-1981) olub.

**25 noyabr 1935** – Əməkdar artist, xanəndə Qaraxan İmran oğlu Behbudov (1935 – 17.11.2020) Ağdam rayonunun Əfətli kəndində anadan olub.

**25 noyabr 1994** – Xalq artisti Məhəmməd İsmayıl oğlu Burcəliyev (25.4.1914 – 1994) vəfat edib. Gəncə Dövlət Dram Teatrının aktyoru olub, teatrda direktor işləyib, tamaşalara quruluş verib. Filmlərdə çəkilib.

### Dünya

**23 noyabr 1875** – Rus yazıçısı, sənətşünas, publisist, ictimai-siyasi xadim Anatoli Vasilyeviç Lunaçarski (1875-1933) anadan olub.

**23 noyabr 1933** – Polyak bəstəkarı və dirijoru Kşiştof Pendereski (Krzysztof Penderecki; 1933 – 29.3.2020) anadan olub.

**24 noyabr 1632** – Niderland filosofu, rasionalizm cərəyanının tanınmış nümayəndəsi Benedikt Spinoza (Benedictus de Spinoza; 1632–1677) anadan olub.

**24 noyabr 1888** – Amerika psixoloqu və yazıçısı, praktik psixologiya üzrə məşhur kitabların müəllifi Deyl Karneqi (Dale Breckenridge Carnegey; 1888-1955) anadan olub.

**24 noyabr 1934** – Görkəmli Rusiya (alman əsilli) bəstəkarı, pianoçu və musiqi nəzəriyyəçisi Alfred Şnitke (1934-1998) anadan olub.

**25 noyabr 1562** – İspan yazıçı-dramaturqu, şair Lope de Veqa (Felix Lope de Vega y Carpio; 1562–1635) anadan olub.

**25 noyabr 1889** – Türk yazıçı-dramaturqu Rəşad Nuri Güntəkin (1889–1956) anadan olub. “Çalıquşu”, “Dodaqdan qəlbə”, “Yarpaq tökümü” və s. romanları əsasında populyar filmlər çəkilib.

**Hazırladı: V.Orxan**

# Bakıda doğulan məşhur musiqiçi haqqında Mahaçqalada ekspozisiya açılıb

Bakıda doğulan və musiqi təhsili alan məşhur bəstəkar, dirijor, pedaqoq, Rusiya Federasiyasının və SSRİ-nin Xalq artisti Murad Kajlayev Dağıstanın canlı əfsanəsidir.

Azərbaycan paytaxtında – əslən Dağıstanın Lak rayonunun Kumux kəndindən olan həkimlər Maqomed və Yelena Kajlayevlərin ailəsində dünyaya gələn Murad Kajlayev peşəkar musiqidə ilk nailiyyətini burada qazandıqdan sonra sənət ömrünü əcdadlarının vətəninə həsr edib, o cümlədən Dağıstanın ilk milli baletinin (“Dağlı qızı”) müəllifi olub.

Noyabrın 18-də Mahaçqaladakı Dağıstan Milli Muzeyində Murad Kajlayevə həsr olunmuş daimi ekspozisiyanın açılışı keçirilib. Mərasimdə 91 yaşlı sənətkar özü də iştirak edib.

“Layihə təkcə bəstəkarın həyat və yaradıcılığı ilə yaxından tanışlığa deyil, həmçinin Dağıstanın musiqi mədəniyyəti tarixi haqqında bir çox məqamları öyrənməyə imkan verir” – Dağıstan Mədəniyyət Nazirlıyinin ekspozisiya ilə bağlı məlumatında deyilir.






“Mən bütün həyatımı Dağıstana həsr etmişəm. İstərdim ki, bura gələn insanlar Kajlayevlərin ruhunu hiss etsinlər. Çünki bu, sadəcə, bir sərgi deyil, eləcə də bizim nəsil haqqında kiçik bir xatirədir”, – deyə Murad Kajlayev bildirib.

Mərasimdə Dağıstanın mədəniyyət naziri Zarema Butayeva diqqətə çatdırıb ki, muzeydəki ən dəyərli eksponatlar arasında bəstəkarın şəxsi royalı, Dağıstanın ilk milli baleti – “Dağlı qızı”nın (1968) partiturasının orijinalı, Kajlayevin tarixi fotoları, bəstəkara verilmiş müxtəlif hədiyyələr var.

Murad Kajlayev 1931-ci il yanvarın 15-də Bakıda doğulub. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (Bakı Musiqi Akademiyası) ali təhsil alıb. Sonralar Mahaçqalaya köçüb. Musiqidən dərs deyib, Dağıstan Radiosu Simfonik orkestrinin baş dirijoru, Dağıstan Dövlət Filarmoniyasının bədii rəhbəri olub, özünün yaratdığı “Qunib” ansamblına rəhbərlik edib. Daha sonra Moskvaya dəvət olunub, 1989-cu ildən 2007-ci ilədək Mərkəzi (Rusiya) Televiziya və Radiosunun Akademik orkestrinə rəhbərlik edib. Ömrünün ahıl çağında vətəni Dağıstana qayıdıb. 2008-ci ildə Mahaçqalada özünün incəsənət məktəbini yaradıb.

Maestro dünyanın müxtəlif şəhərlərində konsert proqramlarında iştirak edib. 2014-cü ildə gəncliyinin şəhəri Bakıda – Azərbaycan Dövlət Filarmoniyasında yaponiyalı pianoçu Çisato Kusunoki ilə birgə konsert proqramı verib. Sənətkar 2016-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın “Dostluq” ordeninə layiq görülüb.

2018-ci il sentyabrın 21-də Heydər Əliyev Sarayında Murad Kajlayevin müəllif gecəsi keçirilib. “Professional səhnədə ilk əsərim 68 il əvvəl – 12 yanvar 1950-ci ildə Bakıda səslənib. Gəncliyimi, unudulmaz pedaqoq və valideynlərimi qaytara bilməsəm də, musiqi daim gənc və əbədiyaşardır. Qismətimə Azərbaycanda doğulmaq, burada təhsil almaq xoşbəxtliyi nəsib olub. Təhsilimi bitirdikdən sonra ata və babalarımın vətəni olan Dağıstana dönüb orada respublikanın musiqisinə öz töhfələrimi verməkdə davam etdim. Bugünkü konsertim doğma Azərbaycana minnətdarlıq işarəsidir”, – deyə o, müəllif gecəsində bildirmişdi.

Qeyd edək ki, M.Kajlayevin əsərləri arasında Azərbaycan motivli nümunələr də var. Onun “Bakı haqqında xatirələr” əsəri ilk dəfə Niyazinin dirijorluğu ilə 1956-cı ildə Dağıstanda ifa edilib. 1980-ci ildə bəstəkar Nizaminin “Xosrov və Şirin” poemasının motivləri üzrə “Simfonik freskalar”ı ərsəyə gətirib.

Dərbənddəki Azərbaycan Dram Teatrı da M.Kajlayevin yaradıcılığına müraciət edib. 2022-ci ildə teatrda bəstəkarın “Validə” operettası səhnəyə qoyulub. Tamaşaya Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyev quruluş verib. Bəstəkar operettanı həyat yoldaşı Validə Kajlayevaya (2022-ci ildə dünyasını dəyişib) həsr edib.

**V.Kamal**

# İstanbulda Fikrət Əmirovun 100 illiyi münasibətilə konsert

İstanbulda görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti, Dövlət mükafatı laureatı Fikrət Əmirovun (1922-1984) 100 illik yubileyi münasibətilə konsert proqramı təqdim olunub. Proqram İstanbulun mötəbər sənət məkanlarından olan Cemal Reşit Rey Salonunda təşkil edilib.



Konsertdə Azərbaycanın Əməkdar artisti Fuad İbrahimovun dirijorluğu ilə Cemal Reşit Rey simfonik orkestri çıxış edib. Azərbaycanlı pianoçu, beynəlxalq müsabiqələr laureatı, dirijor və bəstəkar Abuzər Manafzadə, vokal ifaçıları Mərziyyə Hüseynova, Azərbaycan Akademik Opera və Balet Teatrının solisti Ataş Qarayevin ifaları dinlənilib.

Proqramda Fikrət Əmirovun "Kürd ovşarı" simfonik muğamı, "Azərbaycan kapriççiosu", fortepiano və simfonik orkestr üçün konserti, "Sevil" operasından Balaş və Sevilin ariyaları, "Azərbaycan elləri" mahnısı və digər əsərləri səsləndirilib.

Böyük maraqla qarşılanan konserti həmvətənlərimizlə yanaşı, yerli sakinlər və müxtəlif ölkələrdən xarici qonaqlar da izləyiblər.

## Tarantino yeni serial çəkmək istəyir

Məşhur amerikalı kinorejissor Kventin Tarantino 2023-cü ildə səkkizseriyalı film çəkməyi planlaşdırır.



Rejissor bu barədə özünün "Kino haqqında düşüncələr" kitabının təqdimatı zamanı danışıb. K.Tarantino bundan əvvəl "Təcili yardım" serialını, həmçinin "C.S.I. Cinayət yeri" filminin iki bölümünü çəkib. Lakin o, gələcək layihənin təfərrüatını açıqlamayıb.

Qeyd edək ki, 2019-cu ildə K.Tarantino "Ov qanunu" ("The Law of the Hunt") adlı film çəkmək istədiyini açıqlamışdı. Lakin hələ bu ideyasını reallaşdırmayıb.

2016-cı ildə isə o, müsahibələrinin birində sənət karyerası boyunca 10 film çəkməyi düşündüyünü, artıq 9 filmi çəkdiyini qeyd edərək, bir-iki film də çəkəndən sonra rejissorluğun daşını atacağını demişdi. Həmçinin bildirmişdi ki, 75 yaşına çatsa, bəlkə ondan sonra yeni ideyaları da ola bilər. Hazırda K.Tarantino 59 yaşındadır.

## "Balıqlara xütbə" filmi Almaniyada mükafata layiq görülüb

Rejissor Hilal Baydarovun "Balıqlara xütbə" ("Sermon to the Fish") tammetrajlı bədii filmi Almaniyada – 32-ci Cottbus Film Festivalının (FFC) əsas müsabiqə proqramında nümayiş olunub.




Ekran əsəri 8-13 noyabrda keçirilən festivalın münsiflər heyətinin fəxri mükafatına layiq görülüb.

Nümayişdən sonra filmdə rol alan Orxan İsgəndərli tamaşaçıların suallarını cavablandırıb.

Qeyd edək ki, "Balıqlara xütbə" filmi bu ilin avqustunda 75-ci Lokarno Film Festivalında (İsveçrə) jürinin "Xüsusi diqqət" ("Special Mention Pardo Verde WWF") və gənc münsiflər heyətinin mükafatlarına layiq görülüb.

Azərbaycan, Türkiyə, Meksika və İsveçrə kinematoqrafçılarının iştirakı ilə ərsəyə gələn ekran əsərinin ssenari müəllifləri Hilal Baydarov və Aysu Akcandır.

Film müharibələrdə, onun ağrıları içində itmiş, unudulmuş ruhlar haqqında fəlsəfi nağıldır.

**Lalə**

# Dünyanı düzəltməyi arzulayırsansa...

### Öncə corabını gözəməyi öyrən...

"Davamlı yaşam üçün gözəməyə başla" – Bakıdakı Daş Salnamə Muzeyində Latviyanın Azərbaycandakı Səfirliyi, Latviya İncəsənət Akademiyası və Sigulda regionu sənətkarlarının birgə layihəsi olaraq açılan sərgi belə adlanır.

"QGallery" və "PlatformArt"ın da dəstək verdiyi sərgi noyabrın 18-də – Latviyanın müstəqilliyinin 104-cü ildönümü münasibətilə açılıb.

Latviyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Viya Buşa deyib: "Davamlı yaşam üçün gözəməyə başla" şüarı altında keçirilən sərgi bir az qəribə səslənə bilər, anacaq dünyada baş verən hadisələri nəzərə alsaq təbiəti, ekologiyanı qorumaq barədə düşüncələrə qapılırıq. Latviya kiçik ölkə olsa da, gördüyümüz işlərin sayı böyükdür. Layihəni Azərbaycana gətirməkdə məqsəd bu işi birlikdə görmək, "dünyanı birlikdə xilas edə bilərik" şüarı ilə fəaliyyət göstərməkdir".

Latviya İncəsənət Akademiyasının professoru Barbara Aabele corabların tarixindən danışaraq deyib: "Corablar qədim və müasir etnoqrafiyada ən sadə və ən əvəzolunmaz geyimdir. Onlar müxtəlif kontekstlərdə etalon kimi də dəyərləndirilir. Latviyanın yeni doğulmuş körpələrə, döyüş meydanına gedən əsgərlərə corab vermək kimi çoxəsrlik ənənəsi var. Corablar hər bir kəsin həyatında hər zaman yol yoldaşıdır".



Bildirib ki, sərgidə corabın "həyat"ı mərhələli şəkildə – toxunuşu, geyilməsi, köhnəlməsi və yamanması təsvir olunur. Qızıl sap corabın ona sərf olunan resurslar, vaxt, bacarıqlar, iqtisadi və emosional baxımdan nə dərəcədə dəyərli olduğunu göstərən məcazi bir mesajdır. Buna görə də corabı gözəməyə dəyər.

Diqqətə çatdırılıb ki, sərgilənən corablar Latviyanın Milli Tarix Muzeyində saxlanılan orijinallardan hazırlanmış nümunələrdir. Onların tarixi XVIII əsrin ikinci yarısına aid edilir və Latviyanın müxtəlif bölgələrindən toplanıb. Muzeyin kolleksiyasında iki eyni coraba rast gəlmək mümkün deyil.

"Corabları yamamaqla siz, eyni zamanda dünyanı düzəltmiş olursunuz. Bunu hər birimiz edə bilərik. İstehlakı azaltmağa başlayın, öz əşyalarınızı təmir edin və ekologiyaya nə dərəcədə xeyir verdiyinizin şahidi olun", – deyə Barbara Aabele əlavə edib.

Latviya İncəsənət Akademiyasının professoru İeva Krumina Latviyanın Müstəqillik Gününü Azərbaycanda qeyd etməkdən məmnun olduğunu söyləyib. Bildirib ki, təqdim olunan ideya insanlara enerji ötürərək onların qəlbini də isidəcək.

## İlk milli özbək müzikli – "Ötən günlər" səhnəyə çıxacaq

Özbəkistanın Mədəniyyət və İncəsənətin İnkişaf Fondunun dəstəyi ilə Daşkənddə Abdulla Qədirinin "Ötən günlər" romanı əsasında müzikl tamaşaya qoyulub.

Özbək ədəbiyyatında roman janrının ilk nümunəsi sayılan "Ötən günlər" 1926-cı ildə kitab halında nəşr olunub. Romanda mərgilanlı gözəl Gümüş ilə daşkəndli igid Atabəyin faciəli məhəbbəti özbək xalqının tarixindəki ən mühüm mərhələlərdən birinin – XIX əsrin ortalarındakı hadisələrin fonunda cərəyan edir.

Abdulla Qədirinin sağlığında böyük şöhrət tapmış roman, müəllif repressiya qurbanı olduqdan sonra qadağan edilsə də, ona maraq heç vaxt səngiməyib. Əsər müxtəlif dillərə tərcümə olunub, Azərbaycanda geniş oxucu rəğbəti qazanıb.

İndisə roman ilk özbək milli müzikli kimi yenidən sənət gündəminə gəlməyə hazırlaşır. Fonddan verilən məlumata görə, dünyanı özbək ədəbiyyatının incisi ilə tanış etmək üçün bu əsərə müraciət edilib. Müziklin premyerası 2023-cü ilin avqust ayına planlaşdırılır.

Quruluşun əsas ideyası – ənənə və texnologiyanı elə bir tərzdə birləşdirməkdən ibarətdir ki, klassik roman bugünkü görmə bucağından həm yetkin, həm də gənc auditoriya üçün maraqlı olsun. Çünki əsərdə toxunulan bir sıra problemlər bu gün də cəmiyyətdə öz aktuallığını itirməyib.

Müziklin baş rejissoru Aleksey Frandetti əslən Daşkənddəndir. Rusiyada bir çox müzikllərə quruluş vermiş rejissor "Rossiya – Kultura" telekanalının layihəsi olan "Böyük müzikl" proqramının təşəbbüsçüsü kimi daha çox tanınıb. Hazırda "Lenkom" teatrının baş rejissorudur. Tamaşa üzərində yerli və əcnəbi ssenoqraflar, dramaturq, geyim üzrə rəssamlar, aranjimançı və xoreoqraflardan ibarət beynəlmiləl heyət çalışacaq. Aktyor heyətinə gəlincə, iştirakçılar özbək teatr və kino artistlərinin arasından seçiləcək.

İlk milli özbək müziklinin quruluşçu rejissoru layihə barədə fikrini belə ifadə edib: "Dünyaya gəldiyim, insanları sevməyi öyrəndiyim, şəxsiyyət kimi formalaşmağımda böyük rolu olmuş doğma şəhərə qayıtmaq mənə çox xoşdur. Bir zamanlar "Ötən günlər" romanını mənə nənəm oxumuşdu. Bu gün Rusiya və Avropa teatrlarında tamaşa qurmaq təcrübəsi qazandıqdan sonra öz bilik və bacarığımı Daşkənd səhnəsində istifadə edə biləcəyim üçün qürur duyuram".

**Gülcahan**

## Qətərdə azarkeşlərə Azərbaycan turizmi tanıdılır

Azərbaycanın turizm imkanları noyabrın 20-də Qətərdə başlayan Futbol üzrə Dünya Çempionatı müddətində yerli sakinlərə və əcnəbi azarkeşlərə tanıdılır.

Dövlət Turizm Agentliyindən bildirilib ki, çempionatla bağlı Qətərə səfər edən əcnəbilərin Azərbaycana da səyahət imkanı və bunun üçün viza prosedurunun sadələşdirilməsi diqqətə çatdırılaraq, müxtəlif platformalarda ölkəmiz haqqında məlumat verilir.

Reklam xarakterli məlumatlar hazırda çempionatda iştirak etmək hüququ almış ölkələrin "Facebook" və "Google" platformalarının istifadəçiləri üçün əlçatandır. Hədəf auditoriyasından olan azarkeşlər reklam üzərindən "Azerbaijan.travel" saytında yaradılmış xüsusi səhifəyə (https://azerbaijan.travel/qatar-world-cup) keçid edirlər.

Reklam xarakterli məlumat həmçinin "CNN", "Euronews" media kanallarında, "Wego" və "Expedia" kimi qlobal platformalarda da yayımlanır. Məlumatlılığı artırmaq məqsədilə Qətərin Doha, Əl-Rayan və Lusail şəhərlərində bilbordlar, rəqəmsal bannerlər yerləşdirilib. Təbliğat kampaniyası 20 noyabr – 20 dekabr tarixlərini əhatə edəcək.

## Ayyarım ərzində muzeyləri ödənişsiz ziyarət imkanı – Tatarıstanda

Rusiya Federasiyası Tatarıstan Respublikasının Mədəniyyət Nazirliyi uşaqların mədəni həyata cəlb edilməsi və mədəni sərvətlərlə tanışlığı məqsədi ilə yeni proqram qəbul edib. Noyabrın 15-dən dekabrın 31-dək 18 yaşına çatmamış uşaq və yeniyetmələr respublikanın muzeylərini pulsuz ziyarət edə biləcəklər.



Onlar böyüklərin müşayiəti ilə (bir uşaq – bir böyük) Mədəniyyət Nazirliyinin tabeliyindəki 10 muzey və qoruq-muzeyi ödənişsiz gəzə biləcəklər. Ziyarət proqramına "Kazan Kremli" Dövlət Tarix-Memarlıq və Sənət Muzey-Qoruğu, Bilyar Dövlət Tarix-Memarlıq və Təbiət Muzey-Qoruğu, Tatarıstan Milli Muzeyi, Qabdulla Tukay Dövlət Ədəbiyyat Xatirə-Muzey Kompleksi, Tatarıstan Dövlət Təsviri Sənət Muzeyi və digər mədəniyyət məkanları qoşulub.

Xronoqraf

# Tarixdə bu gün

### Zamanın səhifələrində qalan olaylar, faktlar...

**129 il əvvəl...**



**25 noyabr 1893-cü ildə** türk mədəniyyəti tarixində mühüm hadisə baş verib. Danimarkalı alim Vilhelm Tomsen ilk dəfə qədim türk mədəni abidəsi olan Orxon-Yenisey daş kitabələrindəki yazıları oxuduğunu bildirib. İlk olaraq "Tanrı" və "türk" sözlərini oxumağa müvəffəq olan alim qədim türk yazı mədəniyyəti və əlifbası barədə kəşfi ilə dünya elminə dəyərli töhfə verib.

**117 il əvvəl...**

**24 noyabr 1905-ci ildə** Rusiyada inqilabi hərəkat yeni mərhələyə keçib. Qara dəniz donanmasının Sevastopol limanındakı gəmilərində leytenant Pyotr Şmidtin başçılığı ilə matrosların qiyamı başlanıb. "Oçakov" gəmisində ilk dəfə qırmızı bayraq qaldırılıb. İki mindən çox matrosu əhatə edən qiyam tezliklə yatırıldı və Şmidt güllələndi (1906).

**104 il əvvəl...**

**22 noyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Ədliyyə Nazirliyinin Əsasnaməsini təsdiq edib. Bu tarix Azərbaycan ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

**79 il əvvəl...**

**22 noyabr 1943-cü ildə** Livan müstəqilliyini elan edib. XVI əsrdən 1918-ci ilədək Osmanlı imperiyasının tərkibində olan Livan daha sonra Fransanın mandatı altına keçmişdi. Müstəqilliyin ilk dövrü Livanda xristian-müsəlman toqquşmaları, 1975-1990-cı illər vətəndaş müharibəsi ilə müşayiət olunub. Konfessiyalararası razılaşmaya görə, ölkədə prezident xristian, baş nazir müsəlman-sünni, parlamentin sədri müsəlman-şiə olmalı, hökumətdə yerlər xristian və müsəlmanlar arasında bərabər bölünməlidir. Livan dünyada əhalinin ən sıx (ərazisi 10,5 min kv km, əhalisi 8 milyon) yaşadığı ölkədir.

**73 il əvvəl...**

**22 noyabr 1949-cu ildə** Sumqayıt şəhərinin yarandığı gündür. Xəzər sahilində yeni şəhərin salınması 1938-ci ildə burada istilik elektrik stansiyasının tikintisi ilə başlanıb. 40-cı illərdə kimya və metallurgiya zavodlarının təməli qoyulub. Şəhərin tikintisində SSRİ-nin bütün respublikalarından inşaatçı dəstələr iştirak edib. 1949-cu il noyabrın 22-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sumqayıta şəhər statusu verilib.

**67 il əvvəl...**

**23 noyabr 1955-ci ildə** SSRİ-də hidrogen bombasının ilk sınağı keçirilib. Bombanın gücü Xirosimaya atılan atom bombasından 300 dəfə güclü idi. Onun müəllifləri isə tanınmış sovet "atomçu"ları Saxarov və Zeldoviç idi.

**66 il əvvəl...**

**24 noyabr 1956-cı ildə** Sov.İKP MK 40-cı illərdə Stalin tərəfindən repressiyaya məruz qalmış xalqların reabilitasiyası haqqında qərar qəbul edib.

**59 il əvvəl...**



**22 noyabr 1963-cü ildə** ABŞ-ın Texas ştatının Dallas şəhərində Prezident Con Fitscerald Kennedi qətlə yetirilib. ABŞ-ın 35-ci prezidenti növbəti seçki kampaniyasında iştirak etmək üçün Dallasa gəlmişdi. Prezidenti üç atəşlə qətlə yetirən ABŞ dəniz piyadası Li Osvald özü də iki gün sonra həbsxanaya aparılarkən Kennedinin pərəstişkarı Cek Rubi tərəfindən öldürüldü.

**40 il əvvəl...**

**22 noyabr 1982-ci ildə** Heydər Əliyev SSRİ-nin ali rəhbərliyinə – Sov.İKP MK Siyasi Bürosuna üzv (1978-ci ildən Siyasi Büro üzvlüyünə namizəd idi) seçilib. İki gün sonra o, həmçinin SSRİ Nazirlər Soveti Sədrinin 1-ci müavini təyin edilib. Sovet İttifaqında ilk dəfə olaraq belə yüksək posta müsəlman-türk respublikasının nümayəndəsi yüksəlmişdi. Heydər Əliyev 1987-ci ilin 21 və 23 oktyabrında hər iki vəzifədən istefa verdi.

**19 il əvvəl...**

**23 noyabr 2003-cü ildə** Gürcüstanda parlament seçkiləri (2 noyabr) ilə bağlı etiraz aksiyaları Prezident Eduard Şevardnadzeni istefa verməyə məcbur edib. Mixail Saakaşvili və silahdaşlarının rəhbərliyi altında "məxmər inqilab" baş verib, seçkilərin nəticələri ləğv olunub. 2004-cü ilin yanvarında Saakaşvili prezident seçildi, mart ayında isə onun tərəfdarları yeni parlament seçkilərində qalib gəldilər.

**15 il əvvəl...**

**22 noyabr 2007-ci ildə** Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin Gürcüstan hissəsinin (Tbilisi-Axalkalaki-Türkiyə sərhədi) təməlatma mərasimi keçirilib. Mərasimdə Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri İlham Əliyev, Mixail Saakaşvili və Abdullah Gül iştirak ediblər. Bakı-Tbilisi-Qars dəmiryolu xətti 30 oktyabr 2017-ci ildə istifadəyə verildi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 3368
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641